www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 sentyabr 2018-ci il Çərşənbə № 191 (7080) Qiyməti 60 qəpik

Xəbər

**Məhərrəm ayı: qan tökməyək, qan verək...**

yazısı səh.14-də

Gündəm

**Moskvada tutulan separatçının ekstradisiyasına hazırlıq görülür**



**Deputatlar Fəxrəddin Abozadənin həbsini alqışladılar:** "Başqaları da dərs götürsün"

yazısı səh.3-də

**Müxalifətin payız vədi**

yazısı səh.4-də

**AMİP-in müttəfiqləri İsveçdə hakimiyyətə gəlir**

yazısı səh.3-də

**PKK-çılar və QRU diversantı Qarabağda: Bakıdan reaksiya**

yazısı səh.9-da

**Varlılar maşınlarını baha benzinə görə qazlaşdırır**

yazısı səh.7-də

**Milli Qvardiyanın rəhbəri müxalifət liderini yeyəcəyi ilə hədələdi**

yazısı səh.4-də

**ABŞ-ın Azərbaycana milyardlıq sərmayəsi - etimadın bəlsi...**

yazısı səh.6-da

**KTMT-yə üzvlük məsələsi bitdimi?**

yazısı səh.8-də

**Məhbus rejissorun 121 günlük aclıq aksiyası və bizim aclıq edənlər...**

yazısı səh.12-də

**Qurban Qurbanov, Rey və lider problemi...**

yazısı səh.15-də

**Ağ Evdən daha bir gözlənilməz qərar: FAT-ın ofisi bağlanır**

yazısı səh.11-də

**Ermənistan danışıqlardan niyə yayınır?**

yazısı səh.10-da

# PAŞİNYANIN RUSİYA FİASKOSU- ERMƏNİ BAŞ NAZİR NECƏ RƏZİL OLUB...

Kremldə Ermənistan hökumətinin başçısını "sındırıblar", bu barədə erməni mediası konkret məlumatlar yayıb; yanvar ayınadək Paşinyan komandasındakı "Soros uşaqları" ilə vidalaşa bilər; **Rusiyaya "meydan oxuyan" rəsmi İrəvan "val"ı geri çevirdi:** Suriyadakı proseslərdə Rusiyanın yedəyində...




yazısı səh.5-də

## Ərəb bloggerin Bakıdan qalmaqallı reportajı etiraz doğurdu

8 min ərəbin ölkəmizdə SPİD-ə yoluxması məlumatı nə qədər doğru ola bilər?

yazısı səh.13-də



**Hacı Tahir "Yeni Müsavat"a danışdı**

yazısı səh.6-da



Hüseyn Əlixanov

**Bacısı oğluna görə işini itirən generalın yerinə təyinat alan kimdir?**

yazısı səh.7-də



*Elçin Mirzəbəyli:*

**"Rusiyanın Xəzərdən Suriyanı vurmasına ehtiyac yoxdur"**

yazısı səh.11-də




## Təhsil Nazirliyindən "Bilik Günü"açıqlaması

**Təhsil Nazirliyi bu il 5 günlük tədris həftəsi tətbiq olunan məktəblərin birinci sinfinə gedəcək şagirdlər üçün "Bilik Günü"nün sentyabrın 15-də və ya 17-də keçiriləcəyi ilə bağlı valideynlər arasında yaranan anlaşılmazlıqlara aydınlıq gətirib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov "Trend"ə bildirib ki, sentyabrın 17-də məktəblərdə "Bilik Günü" qeyd edilməməlidir.

Onun sözlərinə görə, təhsil naziri Ceyhun Bayramovun əmrinə əsasən, bütün orta məktəblərdə "Bilik Günü" ictimaiyyət nümayəndələri, sabiq məzunlar, müharibə iştirakçıları və əmək veteranları, tanınmış təhsil və incəsənət xadimləri cəlb olunmaqla sentyabrın 15-də keçirilməlidir.

C.Valehov əlavə edib ki, 15 sentyabr tarixi şənbə gününə təsadüf etdiyindən 5 günlük tədris həftəsi tətbiq olunan məktəb və siniflərin şagirdləri, xüsusilə də birinci sinif şagirdləri həmin gündə məktəbə gələrək müəllimləri ilə görüşə, sinif otaqları, dərs cədvəli ilə tanış ola bilərlər.

C.Valehov həmin məktəb və siniflərdə ilk dərs gününün sentyabrın 17-də olacağını da açıqlayıb.

## Sumqayıtda 18 yaşlı gənc özünü 14-cü mərtəbədən atıb

**Sumqayıt şəhərində 18 yaşlı gənc intihar edib. "Report"un məlumatına görə, Sumqayıt şəhər sakini, 2000-ci il təvəllüdlü Cavidan Rövşən oğlu Quluzadə özünü 14 mərtəbəli yaşayış binasının damından ataraq öldürüb.**

Hadisənin başvermə səbəbləri hələlik məlum deyil.

## UEFA klublar üçün yeni turnir yaradır

**UEFA 2021-ci ildən etibarən üçüncü Avropa klub turnirinin keçirilməsini təklif edib. "Trend"in məlumatına görə, bunu Avropa Klublar Assosiasiyasının (ECA) prezidenti Andrea Anyelli deyib.**

O bildirib ki, ECA yaxın zamanlarda bu təklifi UEFA ilə müzakirə edəcək.

Hələlik yeni turnirin formatı barədə məlumat verilməsə də, yarışda 32 komandanın iştirak edəcəyi nəzərdə tutulur.

Həmçinin hazırda 48 komandanın iştirak etdiyi Avropa Liqasında iştirakçıların sayının 32-yə endiriləcəyi bildirilir.

## Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi dəyişdi

**Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi Elmira Əliyeva pensiya yaşına çatdığı üçün öz xahişi ilə tutduğu vəzifədən azad edilib. Bu barədə virtualaz.org-a Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova məlumat verib.**

Onun sözlərinə görə, 5 saylı poliklinikanın baş həkim müavini Merli Veyisova Bakı Şəhər Baş Səhiyyə İdarəsinə rəis təyin edilib.

## Arvadını boğan qısqanc ərin məhkəməsi başlayır

**Həyat yoldaşını qısqanclıq zəminində qətlə yetirən Elvin Qəhrəmanlının cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb. Cinayət işi üzrə materiallar araşdırılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**

Virtualaz.org-un xəbərinə görə, cinayət işi hakim İradə Həsənzadənin icraatındadır. Məhkəmənin hazırlıq iclası sentyabrın 20-nə təyin edilib.

Qeyd edək ki, hadisə bu il yanvarın 22-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində baş verib. Qəsəbədə yaşayan Cəlilabad rayon sakini E.Qəhrəmanlı həyat yoldaşı Günel Qəhrəmanlını boğaraq öldürüb. Qətlin qısqanclıq zəminində törədildiyi bildirilir. Hadisədən sonra 10-cu polis bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində cinayəti törədən E.Qəhrəmanlı həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Ömürlük məhbusların məsələsi niyə həll olunmur?

### Mirvari Qəhrəmanlı: "Getdikcə onlar tam olaraq unudulacaqlar"



**Son günlər Qobustan həbsxanasında cəza çəkən ömürlük məhbuslarla bağlı məsələ yenidən aktuallaşıb. 23 məhbus anası həbsxanadakı ağır vəziyyətlə bağlı QAT sədri, Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Akif Nağıya müraciət ediblər.**

Bununla bağlı A.Nağının ölkə başçısına müraciət etməsi ömürlük məhbusların taleyini gündəmə gətirib. Onların cəzalarının müddətli həbslə əvəzlənməməsi, Avropa Şurasına üzvlükdən sonra bu məsələnin həllinin yubanması və digər bu kimi məsələlər müzakirə obyektinə çevrilib. Milli Məclisin qarşıdan gələn sessiyasında ömürlük məhbuslarla bağlı məsələnin deputatlar tərəfindən gündəmə gətirilməsinin vacibliyindən söz açılır.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında bunları dedi:** "Bunun parlamentdə gündəmə gətirilməsinə ehtiyac görmürəm. Ömürlük həbs olunublar, etdikləri cinayətlərə görə məsuliyyət daşıyıblar. Kiminsə yaxınını öldürüblər, dövlətə böyük zərər vurublar. Bu baxımdan məsələni qaldırmağın heç bir adı yoxdur. İnsanlar fərdi qaydada bununla bağlı müraciətlər edə bilərlər. Bu müraciətlər əsasında onların müraciətləri nəzərə alına bilər. Onların cəzalarının illə əvəz edilməsi bir az mürəkkəb məsələdir. İnanmıram ki, qanunvericilikdə buna imkan tanına".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirdi ki, ömürlük məhbuslarla bağlı ciddi problemlər var:** "2013-2014-cü illərə qədər siyasi məhbuslarla, həmçinin ömürlük məhbuslarla bağlı vaxtaşırı yazılar gedirdi. Tədbirlər keçirmək üçün xüsusi yerlər var idi. Eyni zamanda məhbusların valideynləri də aktiv idilər. Amma indi hansısa bir mətbuat konfransı keçirməyə vəsait lazımdır. Bu cür məsələləri dövlət qurumları qarşısında ictimailəşdirən mətbuat orqanları, QHT-lər illər öncəyə kimi kifayət qədər çox idi. O zaman müstəqil vəkillər də indiki kimi az deyildi. Bu sahələr üzrə çalışan QHT-lər həmin vəkillərlə birlikdə mətbuat konfransı keçirirdilər. 5-6 il öncəyə qədər ömürlük məhbuslarla bağlı tez-tez hesabatlar hazırlanır, beynəlxalq təşkilatlara göndərilirdi. İndi isə məhbus ailələri şikayət etməyə yer tapmırlar. Çox sağ olsun ki, Akif bəy zaman-zaman ömürlük məhbuslarla bağlı məsələləri qaldırır. Amma onun səlahiyyəti yoxdur ki, bu problemlərlə bağlı monitorinq aparsın. Heç bizlərin də bu cür imkanları yoxdur. Akif Nağı yazdıqlarını təsdiq də edə bilmir. Sizin qəzeti çox sağ olsun ki, zaman-zaman bu məsələni gündəmə gətirirsiz, gündəmdə saxlayırsız. Ömürlük məhbusların vəkillərə ödəməyə maliyyə imkanları belə yoxdur. Bu problemlər aradan qaldırılmayınca, ömürlük məhbusların taleyi acınacaqlı olaraq qalacaq. Getdikcə onlar tam olaraq unudulacaqlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

## Çavuşoğlu: "İdliblə bağlı razılıq əldə olunmayıb"

**Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu İdlib məsələsində razılığa gələ bilmədiklərindən şikayətlənib.**

Modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, Çavuşoğlu məsələnin yalnız danışıqlar yolu ilə həll ediləbiləcəyini ifadə edib.

O, Suriyanın ərazi bütövlüyünü hər zaman dəstəklədiklərini qeyd edərək məsum insanları öldürməklə buna nail olunmasına qarşı çıxıb.

Nazir həmçinin bu sahədə dəfələrlə görüşlərin keçirilməsinə rəğmən heç bir irəliləyişin olmadığına diqqət çəkərək təklif verib.

"Təklifimiz odur ki, hücumlar dayandırılsın. Terror qruplaşmalarının məhv edilməsi üçün birgə fəaliyyət göstərək" - Çavuşoğlu bildirib.

Rumıniyada baş tutan Türkiyə, Rumıniya və Polşa xarici işlər nazirlərinin birgə görüşündə türkiyəli nazir digər ölkələrə Əsəd rejiminə qarşı birgə mübarizə aparmaq üçün çağırış edib.

## Gürcüstan marixuana ixracına hazırlaşır

**Gürcüstanda marixuananın tibbi və kosmetik təyinatlı ixracı məqsədilə istehsalına icazə verilməsi məsələsi nəzərdən keçirilir.**

"Report"un yerli bürosunun verdiyi xəbərə görə, bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.

Məlumata əsasən, bununla bağlı qanunvericiliyə düzəlişlər layihəsi hazırlanıb.

DİN qeyd edib ki, istənilən halda ölkə daxilində marixuananın satışı cinayət məsuliyyəti yaradır.

Yerli mətbuatın məlumatına görə, ölkədə marixuananın istehsalı lisenziyalaşdırılmış fəaliyyət növü elan olunacaq və lisenziya müsabiqə yolu ilə veriləcək.

## Azərbaycanda Nüvə Elmi və Texnologiyaları Mərkəzi yaradılacaq

**Azərbaycanda Nüvə Elmi və Texnologiyaları Mərkəzi yaradılacaq. "Report" xəbər verir ki, bunu dünən Bakıda keçirilən "Gələcəyin enerji imkanları və çağırışlar" adlı beynəlxalq konfrans çərçivəsində Rusiyanın Atom Enerjisi üzrə Dövlət Korporasiyası ("RosAtom") prezidenti Alexander Merten bildirib.**

Onun sözlərinə görə, bu istiqamətdə azərbaycanlı həmkarları ilə işləməyi planlaşdırırlar: "Bu mərkəzdə nüvədən zəhərlənənlərin müalicəsi, eləcə də onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi aparılacaq. Burada həmçinin kadrlar da hazırlanacaq".

A.Merten əlavə edib ki, əgər Azərbaycan hökuməti razılıq verərsə, gələcəkdə ölkədə atom elektrik stansiyası (AES) də tikilə bilər: "Bunun üçün Azərbaycanda əvvəlcədən inşa edilmiş istilik güclərindən də istifadə edilə bilər və xaricə karbonhidrogenin satışı artırıla bilər. Bundan başqa, atom stansiyasının tikintisi istənilən enerji proqramını həyata keçirməyə imkan verəcək. Çünki bu, ucuz və əlçatan energetika sayılır".

## "Nar"dan Türkiyəyə səfər edənlər üçün sərfəli rominq paketi

**"Nar" rominqdə olan abunəçilər üçün sərfəli təkliflər təqdim etməyə davam edir. Türkiyədə olan "Nar" abunəçiləri əla qiymətə təqdim olunan "Tətil" internet paketlərindən yararlana bilirlər. Bunun üçün, səfərə çıxarkən "Tətil" paketlərindən birini sifariş etmək kifayətdir.**




**Abunəçilərin istəklərini nəzərə alan "Nar" rominq internet paketlərini cəmi 2 AZN-dən başlayan qiymətlərlə təqdim edir. 200 MB-lıq internet paketini aktivləşdirmək üçün *777#102#YES, 600 MB-lıq paket üçün isə *777#105#YES şifrəsini yığmaq kifayətdir. İnternet paketlərindən Türkiyə ilə yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Mərkəzi Asiya ölkələri, ABŞ, İran, İsraildə də yararlanmaq mümkündür.**

**Şifariş edilən paketin daxili internet balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq kifayətdir. "Tətil" paketlərinin istifadə müddəti 15 gündür. Nar.az ttps://www.nar.az/tetil-kampaniyasi saytına daxil olmaqla və ya "Tətil" yazıb 777 nömrəsinə SMS göndərməklə paketlər haqqında ətraflı məlumat əldə etmək olar.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə Azərbaycanda ən yüksək nəticəyə nail olub.**

## Bakıda 30 dərəcə isti olacaq

**Sentyabrın 12-də sabah Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamenti bildirir ki, havanın temperaturunun Abşeron yarımadasında gecə 19-23, gündüz 26-30, Bakıda isə gecə 20-22, gündüz 28-30 dərəcə isti olacağı gözlənilir.

Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun temperaturu 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə 24-25 dərəcə isti təşkil edəcək. Şimal-qərb küləyi gün ərzində arabir güclənəcək.

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

**Xəbər verildiyi kimi, sentyabrın 6-da Moskvanın Lübertsı rayon polisinin əməkdaşları tərəfindən Azərbaycanın beynəlxalq axtarışa verdiyi Fəxrəddin Aboszadə saxlanılıb. Ona qarşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 281.2, 283.1 maddələri üzrə ittiham irəli sürülüb. Sentyabrın 7-də Moskva vilayəti Lübertsı şəhər məhkəməsinin hakimi İ.A.Juravlyova Aboszadənin Azərbaycan tərəfinə təhvil verilməsi məqsədilə onun barəsində 1 ay müddətinə həbs cəzası hökmü çıxarıb.**

# Moskvada tutulan separatçının ekstradisiyasına hazırlıq görülür

## Deputatlar Fəxrəddin Aboszadənin həbsini alqışladılar: "Başqaları da dərs götürsün"

Qeyd olunur ki, F. Aboszadə barəsində cinayət işi 2018-ci ilin iyul ayının 12-də Bakı şəhəri Səbayel Rayon Məhkəməsi tərəfindən başlanıb. İyulun 14-də onun barəsində 4 ay müddətinə həbs qərarı verilib. Abbasov beynəlxalq axtarışa verilib.

Fəxrəddin Aboszadə 1956-cı ildə Lerik rayonunda anadan olub. 1993-cü ilin yayında qondarma "Talış Muğan Respublikası"nın "parlament sədri" "seçilib". 1994-cü ildə Azərbaycanı tərk edib və Rusiyada yaşamağa başlayıb. 2005-ci ildə Azərbaycana qayıdaraq talış dilində "Şavnışt" qəzetini dərc edib və az sonra yenidən Rusiyaya qayıdıb.

F. Aboszadə uzun illərdir Azərbaycana qarşı hədyanlar yağdırmaqla, ölkəmizin ərazi bütövlüyü əleyhinə fəaliyyət göstərməklə məşğul olurdu. O, müxtəlif konfranslarda ölkəmiz və qardaş Türkiyə əleyhinə cinayət xarakterli təxribatlar törədirdi. Xüsusilə də ermənilərlə əlbir olub İrəvandan yayımlanan "Talışıstan" televiziyasının fəaliyyətini koordinasiya edirdi. Dəfələrlə İrəvanda separatçı tədbirlərə qatılan F. Aboszadə Azərbaycanı, hakimiyyəti, müxalifəti, siyasi partiyaları, medianı ən müxtəlif "cinayətlər, repressiyalar, təqib"lərdə suçlayıb.

Azərbaycan hüquq-mühafizə orqanlarının rəsmi sorğusu əsasında federal axtarışa verilən və bu il sentyabrın 6-da Moskvada saxlanılan separatçı təşkilat rəhbəri, qondarma Talış Milli Hərəkatının sədri Fəxrəddin Aboszadə ilə bağlı Azərbaycanın Baş Prokurorluğunda araşdırmalara başlanılıb.

Modern.az-ın əldə etdiyi məlumata görə, araşdırmalar Dövlət Təhlükəsizlik Xidməti ilə birgə aparılır.

Azərbaycana gətirildikdən sonra F. Aboszadənin Dövlət Təhlükəsizlik Xidmətinin İstintaq İdarəsində saxlanacağı gözlənilir.

**Milli Məclisin təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, həbs edilən şəxs uzun illər ərzində Azərbaycan əleyhinə Ermənistan tərəfindən fəal istifadə olunurdu:** "1990-cı illərin əvvəllərində Azərbaycanda mərkəzi dövlət hakimiyyətinin zəifləməsi və bütün periferiyalara nəzarət imkanlarını itirməsi müqabilində etnik separatizm dalğası genişlənməkdəydi. Bu prosesə maliyyə, siyasi, silah dəstəyi verən qüvvələr də mövcud idi. Fəxrəddin Aboszadə o zamanlardan separatçılıq mövqeyində olanlardan idi. Sonradan o və onun kimiləri əsl idarə olunduqları məkana üz tutdular və orada müdafiə zolağının içərisindəydilər. Ona görə də Azərbaycan tərəfindən atılan hüquqi addımlar nəticəsiz qalırdı. Bu adamlar ölkə sərhədlərindən kənarda olduqları zaman da separatçı fəaliyyətlərini daha da azğınlaşdırırdılar. İnformasiya məkanında Azərbaycana qarşı bütün qanunları pozan davranışlar nümayiş etdirirdi. Ermənistan xüsusi xidmət orqanlarının dəstəyi ilə yaradılan strukturlarda fəallıq göstərirdi. Mən çox inanmaq istərdim ki, Fəxrəddin Aboszadə ilə bağlı məsələ, sadəcə, kiçik araşdırmadan sonra yarımçıq saxlanmayacaq. Çünki Azərbaycan hüquq-mühafizə orqanları dövlət adından istər Rusiyadan, istərsə də digər ölkələrin ərazisindən bizə keçən və burada sığınacaq qazanaraq həmin dövlətlərin əleyhinə fəaliyyət göstərmək istəyənlərin hamısı ilə bağlı ən sərt tədbirləri görüb. Azərbaycan separatçıları heç zaman himayə eləməyib. Bizim ölkəmiz hüquq prinsiplərini tanıyıb, etibarlı tərəfdaş olub, əməkdaşlığa açıqlıq göstərib. Təqdirəlayiq haldır ki, Rusiya tərəfindən artıq bir ciddi addım atılır. Biz bu addımın sona qədər atılacağını gözləyirik. Fəxrəddin Aboszadənin Azərbaycana təhvil verilməsi Rusiya-Azərbaycan münasibətlərinin tarixi üçün son dərəcə təsirli hadisəyə çevriləcək. Hər kəs bundan sonra qəti şəkildə inanacaq ki, bu təcrübə ölkəmiz əleyhinə olan separatizm alətində buluna bir çox qüvvələrə, hətta ermənilərə tətbiq oluna bilər. Fəxrəddin Aboszadənin cəzalandırılması Rusiyanın özündə də separatizmə ciddi bir zərbə olar".



**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Lənkərandan olan deputat Hadi Rəcəbli isə modern.az-a açıqlamasında separatçı şəxsin həbs edilməsini müsbət qiymətləndirdiyini bildirib:** "Azərbaycan müstəqilliyini ikinci dəfə əldə edib. Üzərində "Azərbaycanlı" sözünü gəzdirən hər bir şəxs onu qorumalı, dövlətimizin ömürlük olmasına çalışmalıdır. Bunun üçün hər birimiz əlimizdən gələni əsirgəməməliyik. Çox təəssüf ki, facebookda, müxtəlif sosial şəbəkələrdə Azərbaycan əleyhinə, Azərbaycan liderləri əleyhinə ardıcıl, sistemli kampaniya aparılır. Bu kampaniya bir sıra beynəlxalq, antimillət, antidövlət, antidemokratik qurumlar tərəfindən təşkil olunur. Onların məqsədi dövlətləri kiçiltmək, parçalamaq və hakimiyyəti ələ keçirərək, idarə etməkdir. Bu yolu tutanların da aqibəti Fəxrəddin Aboszadə ilə eyni olacaq. Bu həbs eybəcər fikirlər səsləndirən Orduxanlara, Qurban Məmmədovlara və digərlərinə dərs olmalıdır. Dövlətimiz əleyhinə çağırışlar edən bu adamlara qarşı da müvafiq addımlar atılmalıdır. Onlar da Azərbaycan dövləti qarşısında cavab verməlidirlər. Sonuncu hadisə o deməkdir ki, separatçılar orada-burada boş-boş qışqırmaqla, danışmaqla heç bir şeyə nail ola bilməyəcəklər. Dövlətimizi zəifləmək istəyən, adlı-sanlı insanları hörmətdən salmaq mövqeyini sərgiləyənlər qanunlar, beynəlxalq hüquq normaları daxilində mütləq cəzalanacaqlar".

**Milli Məclisdə 75 saylı Lənkəran-Masallı seçki dairəsini təmsil edən deputat, Yeni Azərbaycan Partiyasının üzvü Cavanşir Paşazadə isə Fəxrəddin Aboszadənin həbsinə sevindiyini bildirib:** "Azərbaycan xalqının çörəyini yeyən, Azərbaycan xalqının içərisində "göyərən" insanın başqa ölkələrdə dövlətimizə qarşı formalaşdırmaq istədiyi mənfi fikirlərə dəstək verməsi utancvericidir. Beləl期ri həm qanun qarşısında, həm də Allah qarşısında cavab verəcək. Xalqına üz çevirən bütün insanların aqibəti o separatçının aqibəti kimi olacaq. Qoy başqaları da dərs götürsün".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# AMİP-in müttəfiqləri İsveçdə hakimiyyətə gəlir

## Elşən Mustafayev: "Son iki seçkidə İsveçdə gərgin siyasi vəziyyət yaşanır"

**9 sentyabrda İsveçdə keçirilən parlament və bələdiyyə seçkilərini AMİP-in beynəlxalq əlaqələr katibi Elşən Mustafayev və partiyanın baş katibi Arzuxan Əlizadə müşahidə edib. Elşən Mustafayevlə bununla bağlı söhbət etdik.**

***- Elşən bəy, İsveç seçkilərini izləmək üçün bu ölkədə oldunuz. Seçkilər necə keçirildi?***

- Əslində İsveçdə seçkiləri müşahidə deyəndə bu bizim bildiyimiz və gördüyümüz müşahidə kimi deyil. Burada müşahidə təxminən daha çox maraqlanma, gedişatla bağla informasiya əldə etmək və s. kimi bir vasitədir. Seçkilərin aktiv və ya passiv keçirilməsinə isə seçki günü müşahidə aparmaqla qiymət vermək olmaz. Belə ki, İsveçdə səsvermə seçki günündən öncə başlayır və insanlar poçt vasitəsilə də öz səslərini verə bilərlər. Odur ki, seçki günü əgər hansısa məntəqəyə az seçici gəlibsə, bu anlama gəlməlidir ki, insanlar səs vermək istəmirlər. Əksinə, İsveçdə seçicilərin seçkiyə marağı böyükdür və əksəriyyət məmnuniyyətlə bu hüquqlarından istifadə etməyə çalışır .



***- Orada seçki sistemi necədir? Seçki komissiyalarının rolu böyükdürmü? Azərbaycandakı bu sistemlə İsveçdəki sistem arasında fərqli və oxşar cəhətlər varmı?***

- İsveçdə parlament tipli hökumət olduğu üçün ölkə bütünlükdə parlamentin qərarları ilə idarə olunur. Bizim dillə desək, onların seçki qanunu bizimkindən fərqli olaraq bir neçə səhifədən ibarətdir və seçkini Daxili İşlər Nazirliyi keçirdir. Bu da ölkədə uzun müddət oturuşmuş demokratik sistemin olması ilə əlaqədardır. Orada məntəqələrdə hansısa saxtakarlığın olması barədə, komissiya üzvlərinin vəzifələrindən sui-istifadə edə bilməsi haqda danışmaq isə mümkünsüzdür.

***- Qələbəni hazırda İsveçdə hakimiyyətdə olan partiyalar qazandı, yoxsa müxalif qurumlar?***

- Son iki seçkidə İsveçdə gərgin siyasi vəziyyət yaşanır. Yeri gəlmişkən, bu gərginlik bütün Avropa dövlətlərində baş verir. "Ərəb baharı" və Suriya böhranı zamanı Avropaya miqrant axınından sonra insanlar arasında narazılıqlar gücləndi. Bu narazılıqdan istifadə edən millətçi partiyalar həmin narazıları öz ətrafına toplamağa başladı. Bu proses İsveçdə də gedir. İsveç cəmiyyəti həmişə digər millətlərə qarşı tolerant olub və millətçiliyi inkar edib. Bu səbəbdən idi ki, millətçi partiyalar parlamentə düşə bilmirdilər. Amma 2014-cü ildə İsveç Demokratları adlı millətçi partiya 13 faizlə parlamentə daxil olmaqla cəmiyyətdə olan narazılıqları üzə çıxartdı. Bu il isə həmin partiya səslərini bir az da artıraraq 17 faizə qaldırıb. Sağ mərkəz Moderat Partiyasının 4 partiya ilə birgə yaratdığı "Alyans " adlı koalisiya təxminən 40 %, Sosial Demokratların 3 partiyadan ibarət yaratdığı koalisiya da 40% səs yığıblar. Yəni hazırda hakimiyyəti formalaşdırmaq üçün lazım olan 50+1 ortada yoxdur. Odur ki, hazırda danışıqlar gedir.

***- Bildiyim qədəri ilə AMİP-in İsveçdə müttəfiq olduğu bir partiya var. Həmin partiya bu seçkilərdə ciddi uğur qazana bildimi?***

- Moderat Partiyası təmsil olunduğu koalisiya ilə birgə 40,3 faiz səslə hakimiyyəti formalaşdırmağa iddialıdır. Alyans koalisiyanın 4 partiyası içində ən çox səs, təxminən 20 faiz Moderata məxsusdur. Yəni hökuməti formalaşdıracaq olsalar, baş nazir daxil əsas nazirlər kabineti onlara məxsus olacaq.

***- Seçkilərin nəticələrində Azərbaycanı da sevindirən xəbərlər oldu. İki azərbaycanlı xanım millət vəkili, bir soydaşımız isə bələdiyyə üzvü seçildi.***

- Xəbərlər barədə mən də eşitmişəm. Amma bildiyim qədəri ilə bu bir az fərqlidir. Həqiqətən Azərbaycan türkü olan iki bacı seçkilərdə iştirak ediblər. Onlardan biri İsveç parlamentinə Sosial Demokrat Partiyasının namizədi kimi seçilib, digəri isə yerli seçkilərdə, yəni bələdiyyə seçkilərində iştirak edib və seçilib. Bundan başqa, daha iki azərbaycanlının namizədliyi olub, ancaq onlar seçilə bilməyiblər. Eyni zamanda həmin qızlar İsveçdə doğulublar və əslən Cənubi Azərbaycandandırlar.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

**Payız fəsli artıq qapımızı döyür. Ötənlərdə müxalifət partiyaları isti yayın istirahətindən sonra payızda qismən aktiv fəaliyyətə keçirdilər. Bu il payızda ölkə müxalifətinin hansı planları var? Bu barədə siyasi çevrələrdə müəyyən müzakirələr də açılıb. Xüsusilə REAL Partiyasının sədri İlqar Məmmədovun azadlığa çıxdıqdan sonra keçirdiyi mətbuat konfransında bəzi müxalif qurumların keçirdikləri etiraz aksiyalarının hakimiyyətinin əlinə oynadığını qeyd etməsi müxalifətin bundan sonra mitinqlərə önəm verib-verməyəcəyi ilə bağlı suallar yaradıb.**

# Müxalifətin payız planları vədi


Tural Abbaslı


Əli Əliyev


Əli Orucov

**Tural Abbaslı:** "Siyasi aktivlik məsələsi iqtidarın atacağı addımlar və verəcəyi qərarlardan asılı vəziyyətə düşüb"
**Əli Əliyev:** "Passivliyin səbəbini yanlış yerdə axtarmaq yanlış nəticələrə gətirə bilər"
**Əli Orucov:** "Müxalifət çətin və məhdud şərtlər daxilində nəyi bacarırsa həyata keçirməyə çalışır"

**AĞ Partiya başqanı Tural Abbaslı müxalifətin passivliyini və ya fəaliyyətsizliyini hansısa fəsillə əlaqələndirməyin tərəfdarı deyil:** "İstər Azərbaycanda, istərsə də dünya dövlətlərində zamanında baş verən böyük siyasi prosesləri analiz etsək, görərik ki, bu hadisələr fəsillərə görə inkişaf etməyib. Yəni hər fəsildə siyasi çəkişmələr də, küçə hərəkatları da, seçkilər də olub. Azərbaycandakı hazırkı siyasi durğunluq isə nəinki fəsillə, heç tam olaraq müxalifətin özü ilə də birbaşa bağlı deyil. Burada hakimiyyətin rolu daha çoxdur. Təbii ki, bu hala düşməmizdə müxalifətin də özünəməxsus payı az deyil. Təəssüflər olsun ki, siyasi səhnədə hakimiyyət yeganə və əsas siyasi oyunçu durumuna gəlib. Siyasi aktivlik məsələsi iqtidarın atacağı addımlar və verəcəyi qərarlardan asılı vəziyyətə düşüb. Təəssüflə onu da qeyd etməliyəm ki, xalq siyasi oyunçu kimi səhnədən çəkilib. AĞ Partiya yarandığı gündən bəyan etmişik ki, bizim əsas hədəfimiz Azərbaycan xalqının etimadını qazanmaq, xalqın siyasi mübarizə meydanına dönməsinə nail olmaqdır. Bu payızda da fəaliyyətimizin əsas istiqaməti xalqımız olacaq. Bizim üçün hansısa beynəlxalq təşkilatların, xarici siyasi missiyaların, fondların və s. deyil, Azərbaycan xalqının dəstəyi və etimadı vacibdir. Odur ki, partiya olaraq əsasən daxilə hesablanmış siyasət yürüdürük. Təbii ki, eyni zamanda da keçirilməsi ehtimal olunan növbədənkənar parlament seçkilərinə də hazırlıqsız yaxalanmamaq üçün addımlar atacağıq. Ümid edirəm ki, belə bir seçki keçirilsə, hər kəs siyasi səhnədə yeni reallıq olan AĞ Partiyanın varlığını və fəaliyyətini daha yaxından hiss edəcək. AĞ Partiya olaraq bizim də təsisçilərindən olduğumuz Qarabağ Komitəsi sentyabr ayının 29-da Məhsul stadionunda "Qarabağa azadlıq!" şüarı adı altında mitinq təyin edib. Bu mitinqin kütləviliyi, izdihamı və möhtəşəmliyi istər iqtidarımıza, istər münaqişə tərəfinə, istərsə də beynəlxalq aləmə lazımi və faydalı mesajlar verə bilər. Odur ki, biz də burada təmsil olunan partiyalarla birlikdə çalışacağıq ki, bu mitinq möhtəşəm alınsın. Təbii ki, bu məsələdə də Azərbaycan iqtidarının mövqeyi həlledici olacaq. Çünki mitinqin keçirilməsi BŞİH-lə razılaşdırılmasa, istədiyimiz aksiyanın alınacağına inanmıram. İlqar Məmmədovun mitinqlərin hakimiyyətin əlinə oynadığı ilə bağlı fikirlərinə gəlincə isə deyə bilərəm ki, bu mitinq o mitinqlərdən deyil. Həmçinin hətta müxalifət olaraq bizim keçirəcəyimiz "Qarabağa azadlıq!" mitinqi danışıqlar masası arxasında və ya beynəlxalq səviyyədə iqtidarın əlini Qarabağ məsələsində gücləndirəcəksə, nə xoş bizə. Ümumiyyətlə, "hazırda keçirilən hər mitinq hakimiyyətin əlinə oynayır" demək siyasi baxımdan doğru deyil. Bəli, növbədənkənar prezident seçkiləri zamanı seçkini boykot edib, heç bir siyasi təsiri olmayacağını öncədən bilərək keçirilən razılaşdırılmış mitinqlər hakimiyyətin ancaq xeyrinə oldu. Həmin ərəfədə özünü siyasətçi hesab edən tarixçi Cəmil Həsənli AĞ Partiyanı seçkiyə qatıldığı üçün qınaq hədəfinə çevirməyə uğursuz cəhd etmişdi. Bəhanəsi də o idi ki, guya AĞ Partiyanın öz namizədi ilə seçkiyə getməsi seçkilərə legitimlik qazandırmaq cəhdi idi. Halbuki həmin ərəfədə onun təmsilçisi olduğu Milli Şuranın təşkil etdiyi mitinqin seçkiləri daha çox legitimləşdirdiyi siyasətlə yeni məşğul olan həvəskar gəncə belə aydın idi. Necə ki, bunu zaman bir daha sübut etdi. Hər mitinqə ayrıca qiymət vermək lazımdır. Sabah elə bir siyasi situasiya yarana bilər ki, hətta kiçik bir mitinq belə vəziyyəti tam dəyişər".

**VİP sədri Əli Əliyev bildirdi ki, heç kəs yuxuya getməyib:** "Siyasi fəaliyyət fasiləsiz sahədir. Burada hər gün nə isə baş verir, yaxud gözlənilir. Ona görə də siyasilər heç vaxt istirahət belə edə bilmirlər. Passivliyin səbəbini yanlış yerdə axtarmaq yanlış nəticələrə gətirə bilər. Bizim payız planlarımıza gəldikdə isə onu deyə bilərəm ki, ölkənin siyasi təqvimi və gündəliyinə uyğun fəaliyyətimizi mümkün olan şərtlər daxilində davam etdiririk. Bu işlər içərisində kütləvi tədbirlər də ola bilər. Kütləvi tədbirlərə hərənin bir münasibəti ola bilər. Sadəcə, hakimiyyətin resursları çox olduğundan, istənilən situasiyanı öz xeyrinə istifadə edə bilir. "Mitinqlərin iqtidarın xeyrinə olması" məntiqinə onu demək olar ki, o zaman siyasi məhbusların da azad edilməsi, onların azadlığa çıxması iqtidarın xeyrinədir? Belə çıxır, iqtidar bundan divident götürəcək deyə siyasi məhbuslar zindanda otursunlar ki, çıxsalar hakimiyyət xaricdən "Əhsən!" alacaq? Yanlış məntiqdir. Lazım bilən qüvvə belə tədbirlər keçirməlidir".

**AMİP katibi Əli Orucov müxalifətin "yuxuya getməsi" və passiv duruma düşməsi barədə səsləndirilən fikirlərlə razılaşmır:** "Müxalifət Azərbaycanın çətin və məhdud şərtləri daxilində üzərinə düşən vəzifələrini yerinə yetirir, nəyi bacarırsa, nələrə imkanları çatırsa həyata keçirməyə çalışır. Müxalif düşərgəni təmsil edənlər isə əsil qəhrəmanlardır. Yayda ümumiyyətlə tək bizdə deyil, Avropanın özündə də ictimai-passivlik olur. Bu da adətən fəal təbəqənin istirahətə yollanması, siyasi proseslərə təkan verəcək tədbirlərin, kampaniyaların olmaması ilə bağlıdır. Digər tərəfdən, siyasi partiyaların, o cümlədən də müxalif düşərgənin fəal olması üçün ilk növbədə cəmiyyətin özü fəal olmalı, siyasi qüvvələrə və düşərgələrə nəzarət imkanı qazanmalıdır. Bunların heç biri Azərbaycanda yoxdur. Ölkə vətəndaşları sanki özləri-özlərini hər şeydən tədric saxlayaraq siyasi sosiallaşmaya maraq göstərmir, yaxud da bundan çəkinir. Ona görə də nə qədər ki, xalq siyasi proseslərdən, dövlətin idarə edilməsindən və "hakimiyyətin mənbəyi"ndən kənar saxlanılsa, o qədər cəmiyyət və dövlət inkişafdan qalacaq. Bu isə dövlətin varlığı və gələcəyi üçün ciddi təhdiddir. Partiya olaraq bizim fəaliyyətimizin əsas istiqamətləri yerli və mərkəzi təşkilatların fəaliyyətini formada saxlamaq, yeni üzvlər cəlb etmək, beynəlxalq müttəfiqlərimizlə əlaqələrimizi genişləndirmək, ölkədəki ictimai-siyasi proseslərin mərkəzində olmağı və hadisələrin millətin və dövlətin maraqlarına uyğun istiqamətə getməsinə töhfəmizi verməkdir. Bu baxımdan hər bir partiyanın özünün seçdiyi taktiki addımlar var. Bəziləri hökumətə təsir etməyi kütləvi aksiyalarda görür, bəziləri siyasi dialoqu üstün tutur, bəziləri çəkindirməyə meyl göstərir və s. Ona görə də İlqar Məmmədovun mitinqlərlə bağlı səsləndirdiyi fikirlərin üzərində xüsusi dayanmağı lüzum bilməzdim. Hər kəsi siyasətdə, siyasi mübarizənin metodlarında və yanaşmasında fərqli baxışları ola bilər. Belə müxtəliflik əslində normal qarşılanmalıdır. Amma istənilən halda ölkədə, regionda və dünyada gedən sürətli proseslər yaxın zamanlarda Azərbaycanda ciddi və fundamental dəyişiklərə gətirib çıxaracaq. Hesab edirəm ki, AMİP bu dəyişikliklərdə həlledici söz sahiblərindən biri olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**


Viktor Zolotov


Aleksey Navalnı

## Milli Qvardiyanın rəhbəri müxalifət liderini yeyəcəyi ilə hədələdi

### Viktor Zolotov: "Sizi əzilmiş ət parçası edəcəm"

**Rusiya Milli Qvardiyasının komandanı Viktor Zolotov müxalifətçi blogger Aleksey Navalnını döyüşə çağırıb.**

Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, onun sərt mövqeyinə səbəb Korrupsiya ilə Mübarizə Fondunun rəhbəri Aleksey Navalnının Qvardiya rəhbərliyinin əsgərlər üçün alınan qida məhsullarını şişirdilmiş qiymətlərə aldığını iddia etməsidir.

"Barəmdə iftira dolu xəbərlər yayılıb. Zabitlər arasında belə şeylər qəbul olunmur. Əsrlərdən bəri əclafı üzündən vurub, duelə çağırırdılar. Sizi rinqə, tatamiyə, ürəyiniz istədiyi döyüş meydanına çağırıram. Sizi dadlı, əzilmiş ət parçası edəcəm".

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

# Paşinyanın Rusiya fiaskosu-erməni baş nazir necə rəzil olub...

## Kremldə Ermənistan hökumətinin başçısını "sındırıblar", bu barədə erməni mediası konkret məlumatlar yayıb; yanvar ayınadək Paşinyan öz komandasındakı "Soros uşaqları" ilə vidalaşa bilər; Rusiyaya "meydan oxuyan" rəsmi İrəvan "val"ı geri çevirdi: Suriyadakı proseslərdə Rusiyanın yedəyində




**Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya səfəri ilə bağlı olduqca ilginc məlumatlar yayılıb. Ermənistan mediasının yazdıqlarından ortaya çıxan nəticə bundan ibarətdir ki, Paşinyan səfəröncəsi sərt ritorikasını nəinki Rusiya prezidenti Vladimir Putinlə görüşdə davam etdirə bilməyib, hətta Rusiyadakı erməni əsilli iş adamlarının qarşısında rəzil duruma düşüb.**

"Rəsmi informasiyalardan əlavə, hamıya maraqlıdır ki, Putin-Paşinyan görüşündə bağlı qapılar arxasında müzakirə mövzusu nə olub və bu görüş hansı nəticələr verib". Bu fikirlər Ermənistanın "Qrapark" qəzetindəndir. Rusiya kuluarlarına istinad edən qəzetin yazdığına görə, Paşinyan Putinin etibarını qazanmaq və məqsədinin təmiz olduğuna inandırmaq üçün hər şeyi edib. "Birbaşa və ya dolayısı ilə aydın olur ki, o, konfrantasiyaya getməyə hazırlaşmayıb, əməkdaşlığa və bütün mübahisəli məsələlərlə bağlı güzəştə getməyə hazırdır" - qəzet bildirir.

Qeyd edək ki, Rusiya səfəri ərəfəsində rəsmi Moskva Paşinyandan Qərbə bağlı olan bir sıra kadrların öz postlarından uzaqlaşdırılmasını tələb etmişdi. Rusiya XİN başçısı Sergey Lavrovun davamlı şəkildə sərt dillə İrəvana etdiyi xəbərdarlıqlar, eks-prezident Robert Köçəryana Putinin açdığı telefon zəngi, barəsində 1 mart 2008-ci il cinayətləri ilə bağlı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Yuri Xaçaturovun boş qalmış postuna hər hansı bir namizədin Kreml tərəfindən qəbul edilməməsi, üstəlik, MDB üzrə dövlətlərarası axtarışa verilmiş Ermənistanın keçmiş müdafiə naziri, general-leytenant Mikael Arutyunyanın Rusiya ərazisində axtarışının dayandırılması Paşinyanın Qərbə reveranslarına sarsıdıcı cavab zərbələri idi. Ancaq Rusiya rəhbərliyi bununla kifayətlənmək fikrində olmadığını son səfər zamanı da nümayiş etdirdi. Belə ki, Putinlə görüşdən əvvəl və sonra bu səfər barədə danışan və feysbukda yazan təkcə Paşinyan oldu. Rusiya lideri onu Qərbə satmağa məqam gəzən Paşinyanla görüşünün yekununda birgə brifinq keçirməyə, yaxud Ermənistanla ikitərəfli münasibətlərin durumuna aydınlıq gətirməyə belə ehtiyac görmədi. Bu faktın özü Putinin Paşinyana və onun ölkəsinə münasibətinin göstəricisi sayıla bilər. Yeri gəlmişkən, bundan əvvəl Putin Azərbaycan prezidenti İlham Əliyevlə yüksək səviyyədə görüş keçirmiş, birgə mətbuat konfransında strateji əməkdaşlığın durumundan və perspektivlərdən bəhs etmiş, dövlət başçımıza etimadını publika qarşısında nümayiş etdirmişdi. Paşinyanın Moskva səfəri zamanı isə hətta Ermənistanın himayədarlarından sayılan Rusiyanın baş diplomatı S.Lavrovun etinasızlığı da diqqət çəkmişdi. Rusiya təhlükəsizliyinin qarantı olduğu Ermənistanın indi onu "keçi qiymətinə" Qərbə satmaq istəyən hökumətin başçısına öz yerini göstərdi. Hələ səfərdən əvvəl Köçəryan tərəfdarlarının Ermənistan hökumətindəki Qərbə bağlı kadrlarla bağlı dosyeni Kremlə yolladığı barədə xəbər yayılmışdı.

**Görünür, elə buna görədir ki, Ermənistanın "Qrapark" qəzetindəki məqalədə Ermənistandakı "Soros uşaqları"ndan da bəhs olunur:** "Əgər "Soros"la, ümumiyyətlə, proamerikan orientasiyalı kadrlarla bağlı problem varsa, o, (Paşinyan-red.) həmin şəxsləri dəyişməyə hazırdır, xüsusilə də nəzərə almaq lazımdır ki, onlar "ulduz kimi göydən düşməyiblər". Materialda xatırladılır ki, Rusiyanın "arzuolunmaz" hesab etdiyi kadrların siyahısına Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan rəhbərlik edir. "Beləliklə, yanvar ayına qədər bir sıra kadr dəyişiklikləri həyata keçiriləcək" - qəzet yazır.

"Joxovurd" qəzeti isə Ermənistanın baş nazirinin Rusiyadakı erməni iş adamları ilə görüşünün də asan keçmədiyini yazıb. Bildirilir ki, sözügedən görüşdə əsasən keçmiş hakimiyyətlə bağlılığı olan iş adamları iştirak edib. Hansı ki, onlar yeni hakimiyyətin dövründə özlərini rahat hiss etmirlər. "Onların çoxu görüşə, sadəcə, müşahidəçi kimi qatılıb, oturub dinləyiblər və gediblər. Digərləri isə bir-biri ilə daha Ermənistanla maraqlanmayacaqları barədə danışıblar. Çünki iş adamları ehtiyatlanırlar ki, yeni hökumət onlar üçün əlavə başağrısı yaradaca" - qəzet yazısında bildirilir. Müəllif bildirir ki, erməni iş adamları perspektivdə dəmir barmaqlıqlar arxasına düşmək istəmədikləri üçün Ermənistana investisiya yatırmaq istəmirlər.

Paşinyanın sahibkarlarla görüşündə baş verən insidentdən də bəhs olunur. Məlum olur ki, "Troyka Dialoq" kompaniyasının sahibi Ruben Vardanyan N.Paşinyanla kifayət qədər aqressiv danışıb. Bundan əlavə, məlum olur ki, Vardanyan yeni hökuməti aşağılayıb, yeni hakimiyyətin onun "ayağını tapdadığını" bildirib. Qeyd edək ki, hakimiyyət bundan əvvəl Ermənistandakı "Strateji Təşəbbüslər Mərkəzi" fondunu bağlamağa qərar verib. "Hansı ki, qurumun qəyyumlar şurasının üzvlərindən biri Vardanyandır" - "Joxovurd" qəzeti sonda yazır.

**Erməni ictimaiyyəti də etiraf edir ki, Paşinyanın Moskvada Putinlə görüşü istənilən nəticəni verməyib. Ermənilər Paşinyanı Putinin tələsinə düşməkdə və təcrübəsizlikdə ittiham edir(publika.az). Erməni şərhçi Tevos Arşakyan Paşinyanın xarici siyasət təcrübəsinin yoxluğuna diqqət çəkib:** "Heç kimə sirr deyil ki, Paşinyanın xarici siyasət təcrübəsi yoxdur və bu, Ermənistana qəddar zarafata başa gəldi. Demək olar ki, Paşinyan hökuməti rusların məharətlə qurduğu tələyə düşdü və burada qazanan Moskva ilə Bakı oldu". Erməni şərhçi yazır ki, Paşinyan qaçaraq Putinin görüşünə getdi.

"Daha sonra iki ölkə arasında münasibətlərin inkişafı haqqında bəlağətli bəyanatlar verdi. Halbuki Paşinyanla görüşdən əvvəl Putin İlham Əliyevlə görüşmüşdü və həmin görüşdə 16 sənəd imzalanmışdı. Paşinyanla isə heç bir sənəd imzalanmadı. Əvəzində Putin Paşinyanı tələyə salaraq, onun Qərbə inteqrasiya siyasətinin qarşısını aldı" - deyə, erməni şərhçi qeyd edib.

Paşinyanın Putin qarşısında rəzil günə düşməsini sübut edən rəsmi xəbərə diqqət çəkək. Rusiya səfərindən sonra məlum oldu ki, İrəvan Suriyadakı proseslərdə iştirak qərarını qətiləşdirib. Düzdür, Ermənistanın "öz bayrağı" altında Suriyadakı proseslərdə iştirak edəcəyi iddia olunur. Amma şübhəsiz ki, "bayraq" söhbəti Qərb dairələrində qıcıq yaratmasın deyə, dövriyyəyə buraxılıb. Səfil gündə olan Ermənistan Suriya kimi bataqlığa müstəqil şəkildə girmək iqtidarında deyil. Deməli, bu prosesdə də Paşinyan hökuməti Rusiyanın yedəyində gedəcək. Artıq məsələ ilə bağlı Ermənistanda da etirazlar başlayıb. "Erməni hərbçilərinin Suriyaya Rusiya bayrağı altında göndərilməsi Ermənistanın Qərblə münasibətlərini daha da pisləşdirəcək".

Musavat.com xəbər verir ki, bu sözləri erməni politoloq Ruben Mehrabyan 1-ci informasiya saytına verdiyi müsahibədə söyləyib. Onun sözlərinə görə, bu hadisələrin ən arzuolunmaz inkişafı ola bilər. "Rusiya hərbçiləri və ümumiyyətlə, Rusiyanın özü qəssab Əsədi müdafiə edir və onun Suriyadakı hərbi cinayətlərinə ortaqdırlar. Erməni əsgərlərinin Suriyada ruslarla çiyin-çiyinə durması Ermənistanı bütün dünyanın gözündən salacaq. İkincisi, bu, İrəvanın Qərblə münasibətlərinin korlanmasına gətirib çıxaracaq. Əgər Ermənistan Suriyada iştirak etmək istəyirsə, bunu yalnız beynəlxalq mandat əsasında həyata keçirməlidir, daha Rusiyanın özbaşınalığı çərçivəsində yox...", - R.Mehrabyan deyib.

Ruben Mehrabyan hadisələrin tərs yöndə inkişafı nəticəsində Ermənistanı sanksiyalarla üzləşə biləcəyini sözlərinə əlavə edib. Bundan başqa, o, sünni ərəb ölkələrində erməni icmalarının da olduğunu xatırladaraq son gəlişmənin onlar üçün də problemlər yaradacağını qeyd edib. Ermənistanın "Norvank" siyasi araşdırmalar fondunun rəhbəri Karen Veranyan isə tam əks fikirdədir. O, erməni əsgərlərinin Rusiya bayrağı altında olmasını "köhnə ənənələrin davamı" kimi qiymətləndirib. Veranyan Ermənistan hərbçilərinin yalnız minaxtaran, həkim kimi yardımçı funksiyası rolunu oynayacağını deyərək, onlara heç bir təhdid yaranmayacağını iddia edib.

N.Paşinyan Rusiya səfəri öncəsi Putinlə "bir-birinin daxili işlərinə qarışmamaq"la bağlı müzakirələr aparacağını demişdi. Səfərdən sonra bu mövzuya toxunmadı, ardınca da bəlli oldu ki, Rusiyanın forpostu indi də onun ardınca Suriyaya getməyə hazırlaşır. Yuxarıda sadalananlar bir daha onu təsdiqləyir ki, Ermənistanın baş naziri Rusiyada ölkəsinin "müstəqil olduğu"nu deməyə belə cürət etməyib. Mümkündür ki, Paşinyan hakimiyyətinin ömrünü uzatmaq naminə Rusiyanın digər tələblərinin də icrasına tezliklə başlasın. Yaxın günlərdə qərbyönümlü kadrların əvəzlənməsi baş versə, təəccüblənməyin...

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

## Ermənistan xüsusi xidmət orqanlarının başçılarını dinləyirlər-sensasion səs yazısı

**Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru və Xüsusi İstintaq Xidmətinin rəhbərinin sensasion səs yazısı yayılıb.**




Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, səs yazısı Ermənistan Xüsusi İstintaq Xidmətinin rəhbəri Sasun Xaçatryan və Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan arasında Ermənistanın 2-ci prezidenti Robert Köçəryan və KTMT-nın baş katibi Yuri Xaçaturovun həbsi barədə danışıqlardan ibarətdir.

Vanetsyan ona hakimlə söhbəti haqda danışır, bildirir ki, artıq Köçəryanın həbsi ilə bağlı təlimat verilib. Sonra Xaçaturova keçir. Deyir ki, KTMT-nın baş katibinə heç bir halda toxunmaq olmaz, çünki Rusiya ilə münasibətləri korlamaq təhlükəsi var.

Ermənistanın baş naziri Nikol Paşinyan "Facebook" sosial şəbəkəsində canlı yayımı zamanı Ermənistanın Xüsusi Istintaq Xidmətinin rəhbəri Sasun Xaçatryan və Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan arasında Ermənistanın 2-ci prezidenti Robert Köçəryan və KTMT-nin baş katibi Yuri Xaçaturovun həbsi barədə səs yazısını təsdiqləyib.

Paşinyan bildirib ki, Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanı yanına çağıraraq mətbuat üçün açıqlama verməsinə dair göstəriş verib.

"Biz bu izahlara hələ qayıdacağıq. İndi mən başqa şey demək istəyirəm. Bunu kim və niyə etdi? Hansı siyasi hədəflə?", - Paşinyan bildirib.

Onun sözlərinə görə, həmin şəxslərin danışığı siyasi sabotaj məqsədilə dinlənilə bilərdi.

"1 martda insanların qətlində günahkar olanların hamısı məhkəmə qarşısında cavab verəcək. Xalqdan oğurladıqlarının hamısını xalqa qaytaracaqlar - Robert Köçəryan, Serj Sərkisyan, Ovik Abramyan, Manvel Qriqoryan, Taron Markaryan, Qaqik Xaçatryan... Müxtəlif kalibrli məmurlar bunu hiss edirlər və bilirlər ki, bu vaxt gəlir. Və onlar buna mane olmaq üçün hər cür vasitəyə əl atırlar", - Paşinyan bildirib.

# ABŞ-ın Azərbaycana milyardlıq sərmayəsi

## Qubad İbadoğlu: "Ermənistan və Gürcüstana belə sərmayə qoyuluşu edilməyib"



**İndiyədək ABŞ tərəfindən Azərbaycan iqtisadiyyatına 13 milyard dollardan çox investisiya qoyulub. İqtisadiyyat naziri Şahin Mustafayevin verdiyi məlumata görə, bunun 1 milyard dollardan çoxu qeyri-neft sektoruna yönəldilib.**

Hazırda Azərbaycanda sənaye, tikinti, rabitə, bank və sair sahələrdə 240 ABŞ şirkəti fəaliyyət göstərir. ABŞ Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Bu ilin yanvar-iyun aylarında ölkələr arasında ticarət dövriyyəsi 476,1 milyon dollar təşkil edib. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ölkəmizdə bir sıra layihələrin icrasına 350 milyon dollar vəsait ayırıb.

ABŞ-ın Azərbaycana investisiyalarını nə qədər yüksək hesab etmək olar? Region ölkələri ilə müqayisədə açıqlanan məbləğ azdır, ya çox? Sualları cavablandıran **iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlunun** fikrincə, 13 milyard dolları Azərbaycana yatırılan sərmayələrin ümumi həcmi baxımından dəyərləndirdikdə, elə də böyük rəqəm olmadığı görünür: "Nəzərə alsaq ki, son 15 ildə ölkəyə yatırılan sərmayələrin həcmi 230 milyard ABŞ dollarını ötür, bu halda ABŞ-ın sərmayələri ümumi məbləğin cəmi 5 faizini təşkil edir. Yəni məbləğ elə də böyük görünmür. Lakin Cənubi Qafqaza olan sərmayələrin miqdarına baxdıqda, Ermənistan və Gürcüstanla müqayisədə Azərbaycana daha çox sərmayə yatırıldığını görürük. Məsələn, son 10 ildə Ermənistana qoyulan sərmayələri ABŞ Azərbaycana bir ildə yatırır. Nəzərə almaq lazımdır ki, Azərbaycanın özünün də investisiya imkanları yüksəkdir. Ölkəmiz Türkiyə, Gürcüstan, İsveçrə, Britaniya iqtisadiyyatına qoyulan sərmayələr baxımından fərqlənir. Azərbaycanda dövlətin daxili investisiyaları da kifayət qədər yüksəkdir, Ermənistan və Gürcüstanın belə imkanları yoxdur. Amma nəzərə alaq ki, son dövrlər həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya regionuna xaricdən investisiya qoyuluşlarının azalması prosesi müşahidə olunur. Bu, həm regiondakı vəziyyətlə bağlıdır, həm də bütövlükdə qlobal şəraitlə əlaqədardır. Həm Rusiyada, həm Qazaxıstanda, həm də Azərbaycanda iqtisadiyyata investisiya qoyuluşlarının azalması müşahidə olunur. Bunun da səbəbi ayrılıqda götürülmüş ölkədəki vəziyyətlə deyil, bütövlükdə regiondakı vəziyyətlə izah olunur".

**İqtisadçı-alim ABŞ-ın Azərbaycana investisiya qoyuluşlarını yüksək qiymətləndirir:** "Nəzərə alsaq ki, 13 milyard dolların 1 milyardı qeyri-neft sektoruna yönəldilib, bu investisiyaların əhəmiyyətinin yüksək olduğunu görərik. ABŞ sərmayəsi daha çox innovativ xarakterlidir, bu sərmayələrdə texnoloji qoyuluşlar daha çox üstünlük təşkil edir. Digər tərəfdən, həm ABŞ, həm də Böyük Britaniya sərmayələri Azərbaycanın iqtisadiyyatının formalaşdığı, sərmayəyə daha çox ehtiyacı olduğu 90-cı illərdə gəlməyə başlayıb. Həmin dövrdə bu sərmayələr iqtisadidən daha çox siyasi xarakter daşıyırdı. Yəni qoyulan sərmayə həm də verilən siyasi dəstəyi ifadə edirdi. Bu baxımdan da onları yüksək qiymətləndirmək lazımdır".

**Q.İbadoğlu bir məsələni də qeyd edir ki, ABŞ Azərbaycana sərmayə qoyan ölkələr arasında ilk onluğa daxildir:** "Hazırda Böyük Britaniya, Türkiyə, Norveç ilk üçlükdədir. Eyni zamanda İran və Rusiya mənşəli sərmayələr də getdikcə artmaqdadır. İrana qarşı sanksiyalar tətbiq olunduğu üçün güman edirəm ki, yaxın zamanlarda bu ölkənin Azərbaycana sərmayə qoyuluşlarının artmasına səbəb olacaq. İranlı biznesmenlər öz biznes maraqlarını Azərbaycan üzərindən reallaşdırmağa çalışacaqlar".

**❑ DÜNYA,**
**"Yeni Müsavat"**



# Hacı Tahir "Yeni Müsavat"a danışdı

## "İmamzadə" ziyarətgah kompleksinin imamı: "Əvvəlki illərdə ziyarətgaha tətbiq olunan məhdudiyyətlər ləğv edilib, şəhərdəki iki məscid isə təmir olunur"

**Gəncəyə yeni təyin olunmuş icra başçısı Niyazi Bayramov Aşura öncəsi şəhərdə olan bütün məscidləri ziyarət edib. Mətbuatın yazdığına görə, yeni icra başçı Məhərrəmlik ayının başlanması ilə əlaqədar "İmamzadə" ziyarətgahına gedərək ərazinin bərpa olunmasını tapşırıb, eyni zamanda "İmamzadə" kompleksində yerləşən 5000 nəfərlik tutumu olan zalın açarını dindarlara təqdim edib.**

*O da qeyd olunub ki, Məhərrəm ayından etibarən "İmamzadə" ziyarətgah kompleksi dindarların istifadəsinə veriləcək. Qeyd edək ki, Gəncədə sonuncu dəfə ötən il Aşura günündən bir gün qabaq, Tasua gecəsi polis və dindarlar arasında qarşıdurma yaranmışdı. Səbəb isə icra hakimiyyətinin "İmamzadə"nin qapısını bağladaraq ziyarət üçün girişi məhdudlaşdırması olmuşdu. Ancaq indi belə görünür ki, yeni başçı bu məhdudiyyətləri ləğv edir. Gəncədə baş verənlər, xüsusən də Məhərrəm ayı Aşura mərasimlərinin hazırlığı ilə bağlı QMİ-nin Gəncəbasar bölgəsi üzrə səlahiyyətli nümayəndəsi, "İmamzadə" ziyarətgah kompleksinin imamı Hacı Tahir Abbasovla söhbət etdik.*

***- Hazırda Gəncə dini sahədə vəziyyət necədir? Dindarlar arasında hər hansı narahatlıq doğuran hadisə varmı?***

- Hal-hazırda Gəncədə dini vəziyyət yaxşıdır, dindarlar vəziyyətdən məmnundurlar, hər hansı bir narahatlıq yoxdur. Din-dövlət münasibətləri qaydasındadır. Dindarlar çox rahat şəkildə ibadət edirlər, arada olan qorxu, narahatlıq götürülüb. Sentyabrın 11-dən etibarən məscidlərimizdə və "İmamzadə" ziyarətgahında matəm məclislərimiz keçiriləcək. İmamzadə ziyarətgahında iki böyük zal var, "Hüseyniyyə" adlı zalda kişilər, "Zeynəbiyyə" adı verilmiş zalda isə qadınlar üçün məclislər keçiriləcək. "Şahsevənlər" məscidinin imam müavini Hacı Etibar - özü də seyiddir - 10 gün müddətində "İmamzadə"də xütbə edəcək, mərsiyələr deyiləcək. Əminəm ki, hər şey yüksək səviyyədə olacaq.

***- Yeni icra başçı məscidlərə gedib, dindarlarla görüşüb, onları dinləyib. Bir məsciddə təmir işləri başlayıb, "İmamzadə"nin əsas zalı dindarların istifadəsinə verib. Yeni icra başçı gələndən dini sahədə daha nələr baş verir?***

- Bəli, icra başçısı Niyazi Bayramov bu həftənin əvvəlində icra hakimiyyətinin rəhbər işçiləri ilə birlikdə "İmamzadə" ziyarətgahına gəldi. Ziyarətgahın giriş-çıxışlarına baxdı. Tövsiyələrini verdi. "İmamzadə"nin həyətində təmizlik və yenilənmə işləri başlayıb, eyni zamanda iki məscidimizdə - 18-ci əsrdə tikilmiş "Qazaxlar" məhəllə məscidinin və Bağmanlar ərazisində yerləşən tarixi "Qırıxlar" məhəllə məscidində təmir işlərinin başlamasına göstəriş verib. Yeni başçı gəldikdən sonra dindarlar rahat şəkildə ibadətlərini edirlər. "İmamzadə" kompleksində böyük bir zal vardı. O zaman prezident də onun açılışında iştirak etmişdi. Namiq Allahverdiyev adlı bir nəfər oranı bağlamışdı. İndi yeni başçı o zalı açdı və dindarların istifadəsinə verdi. Yəni ab-hava tamamilə dəyişib.

***- Son illərdə demək olar ki, hər Aşura günü Gəncədə narahatlıq olurdu. Ötən il "İmamzadə" ərazisində gərginlik olmuşdu. Bu ilə necə qurulub işlər? Əvvəlki illərlə müqayisədə nələr dəyişəcək ki, narazılıq yaranmasın?***

- Mən 1992-ci ildən "İmamzadə"yə təyinat almışam. Sonradan bir müddət yerli polis idarəsi rəisinin təzyiqi ilə işimdən uzaqlaşdırılsam da, 2000-ci ildə yenidən bərpa oldum. Uzun müddət ərzində "İmamzadə" ziyarətgahında heç bir neqativ hal olmamışdı. Yalnız keçən il məlum insident qeydə alındı. Ancaq bu insident dindarlarla olmadı, onlar öyrədilmiş adamlar idi. Belə adamları biz bu yaxınlarda da gördük. Onlar nə dindar, nə də Hüseynçi deyillər. Çünki müsəlman, Hüseynçi olan şəxsə Məhərrəmlikdə, Aşura günlərində belə hərəkətlərə yol verməz.

***- Respublikada Məhərrəm ayının başlanması ilə bağlı tədbirlər, toplantılar keçirilir. Sanki bu günlərdə hansısa təxribatın olacağı ilə bağlı bir məlumat, narahatlıq var. Gəncədə hər bir təxribat gözlənilir?***

- Gəncədə yerləşən "İmamzadə" ziyarətgahının tarixi islamiyyətin ilk illərinə gedib çıxır. Əsrlərdir insanlar dünyanın müxtəlif yerlərindən bura gəlir. Ziyarətgahda heç zaman təxribat, qarşıdurma olmayıb. Yalnız keçən il bu hadisə baş verdi və biz araşdırdıq ki, bunlar kənardan gəlmiş, öyrədilmiş insanlardır. İmam Hüseyn (ə) ardıcılı heç zaman qan tökməz, cinayət törətməz. İyulun 10-da da bəzi təxribatçılar, başıpozuqlar tərəfindən törədilən hadisə dini zəmində deyildi. Hadisəni törədənlər əsasən cinayətkar keçmişi olan, mənəvi dəyərlərdən uzaq insanlar idi, bəzi insanlar isə bilmədən təsirə düşmüşdü. Kadrlardan da görünür ki, Rəşad adlı şəxsə əlində xəncərlə meydana başqa istiqamətdən daxil olur, əlindəki xəncəri nümayiş etdirərək əvvəlcə mənim qardaşım Səməd Abbasovu, daha sonra isə İlqar Balakişiyevi əlindəki həmin xəncərlə qətlə yetirir. Sonra isə qaçıb gedib və Samux rayonunda bir nəfərin evində gizlənib. Həmin adam da əvvəlcə molla olub, sonradan "quranççı" deyilən bir cərəyana qoşulub. Daha sonra isə Şəmkirə qaçdı və orada da sonunun necə olduğunu hər birimiz mediadan oxuduq.

Ümumilikdə mənim burada işlədiyim 18 il ərzində heç bir narahatlıq, gərginlik olmayıb. Yalnız son iki ildə məhdudiyyətlər tətbiq olunmuşdu. Yeni başçı tərəfindən ötən il qoyulan məhdudiyyətlər artıq ləğv olunub. Çünki Tasua gecəsi "İmamzadə"də 100 minə yaxın insan olur. Bu insanlar üçün çadırlar qurulub, çay ehsanları verilib. Ötən il bu ənənə qadağan olunmuşdu, ancaq bu ildən yenidən bərpa olunub. Dövlət başçısının tapşırığı və cənab başçının göstərişi ilə yenidən burada qadınlar və kişilər üçün çadırlar qurulacaq, ehsan təşkil olunacaq. İmam Hüseyn meydanı fəaliyyət göstərəcək. Ziyarətgaha getmək, ziyarət etmək asanlaşdırılacaq. Cənab başçı polisin ziyarətgahın içərisində fəaliyyətini qadağan elədi, ziyarətgah əməkdaşları və dindarlarımız tərəfindən asayiş təmin olunacaq. Polis kənardan daxil olan insanları təhlükəsizlik məqsədilə yoxlayacaq. Ancaq bunun əvəzinə hər iki qapılar açıq olacaq, giriş-çıxış asanlaşdırılacaq. Camaatımız artıq "İmamzadə"nin bütün hücrələrindən istifadə edə biləcəklər.



"Qardaşım Gəncədə təxribatın, gənclərin günahsız ölümlərinin qarşısının alınması uğurunda şəhid olubsa, bu şəhadət bizim üçün fəxrdir"

***- Bu il Gəncədə baş verən hadisələrin Məhərrəm və Aşura mərasimlərinə hər hansı formada təsiri ola bilərmi? Hansısa məhdudiyyətlər mümkünmü?***

- Gəncədə baş verən məlum hadisələrin Aşura və Məhərrəmliklə heç bir əlaqəsi yoxdur. İyulun 10-da Gəncədə baş verənlərin şəhər camaatı ilə əlaqəsi yoxdur, bu bir təxribat idi. Kənardan gələn təxribatçılar provokasiya yaratmaq istədilər, amma gənclər buna qoşulmadı. Mənim qardaşım da bu hadisədə şəhid oldu. Mən o zaman da bildirdim ki, əgər qardaşım Gəncədə təxribatın, gənclərin günahsız ölümlərinin qarşısının alınması uğurunda şəhid olubsa, bu şəhadət bizim üçün fəxrdir. Bu cür hadisələrlə Azərbaycanı xaos ölkəsinə çevirə bilməzlər. Gəncədə iyulun 3-də və 10-da törədilən hadisələrin Məhərrəm ayına heç bir aidiyyəti yoxdur, buna görə də burada heç bir məhdudiyyət ola bilməz. Dini ayinlər əvvəlki qaydada davam edəcək, sadəcə, son bir neçə ildə ortaya çıxan məhdudiyyətlər aradan qalxıb.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

# Bacısı oğluna görə işini itirən generalın yerinə təyinat

## 4 ay əvvəl işdən çıxarılan Penitensiar Xidmətin rəis müavini Hüseyn Əlixanovu əvəz edəcək Orxan Qasımov kimdir?

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəis müavini, ədliyyə general-mayoru Hüseyn Əlixanovun yerinə yeni təyinat olub.**

Modern.az-ın nazirlikdən əldə etdiyi məlumata görə, Ədliyyə Nazirliyi Cəzaların icrasına nəzarət üzrə müfəttişliyinin rəis müavini Orxan Əziz oğlu Qasımov Pentensiar Xidmətin rəis müavini təyin edilib.

Qeyd edək ki, sentyabrın 10-da O.Qasımov kollektivə təqdim edilib. "Yeni Müsavat"ın məlumatına görə, O.Qasimov əvvəllər Ədliyyə Nazirliyinin Xətai rayon məhkəmə icraçıları şöbəsinin rəisi işləyib. 2008-ci ildə prezidentin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib. Sonra isə nazirliyin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyinin rəis müavini təyin olunub.

Cəzaların icrasına nəzarət üzrə müfəttişlik penitensiar müəssisələrin cəzaların icrası ilə bağlı fəaliyyətinə, məhkumların cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrasına nəzarət edir, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

Yada salaq ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin rəis müavini, ədliyyə general-mayoru Hüseyn Əlixanov bu ilin may ayının 4-də vəzifəsindən azad edilib. Penitensiar Xidmətdən generalın 65 yaşı tamam olduğu üçün təqaüdə göndərildiyi bildirilib. Maraqlıdır ki, H.Əlixanovun təqaüd yaşı məhz işdən azad ediləndən 4 gün əvvəl, mayın 1-də tamam olmuşdu.

H.Əlixanovun işdən çıxarılacağı hələ ötən ilin oktyabrından gözlənilirdi. Ötən ilin oktyabr ayının 23-də Bakı-Astara-Bakı qatarında xüsusi təyinatlı vaqonda Bakı şəhərinə müşayiət olunan 1980-ci il təvəllüdlü, əvvəllər məhkum edilmiş, CM-in müxtəlif maddələri ilə təqsirləndirilən "Qoca" ləqəbi ilə tanınan Etibar Məmmədov və 1989-cu il təvəllüdlü, CM-in müxtəlif maddələri ilə təqsirləndirilən "Abdulla" ləqəbli Əli Ağami qaçmışdı. E.Məmmədovun saxlanılması üçün keçirilən əməliyyat zamanı silahlı müqavimət göstərdiyi üçün öldürülərək zərərsizləşdirildi. Ə.Ağami isə Şirvan şəhərində saxlanıldı və bu işə görə də cəzası ağırlaşdırıldı.

Faktla bağlı dərhal Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 304.2-ci (azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altından qaçma) və 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb



etdiyi halda istifadə etməməsi ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlandı. Bunun ardınca isə həbslər başladı.

Əvvəl tanınmış müğənni Fədayə Məmmədova (Laçın) təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunaraq, barəsində həbs-qətimkan tədbiri seçildi və bu iş üzrə məhkəmə hələ də davam etdirilir.

Baş Prokurorluqda faktla bağlı başladılmış istintaq Penitensiar Xidmətin üç əməkdaşının saxlanmasına səbəb oldu. Qarovul rəisi Ceyhun Səmədov, qarovul rəisinin müavini Fuad Hacıyev və qarovul rəisinin digər müavini Tural Poladxanov saxlanılaraq istintaqa cəlb edildilər. Qarovul rəisi Ceyhun Səmədovun Hüseyn Əlixanovun bacısı oğlu olması faktı üzə çıxdıqdan sonra generalın taleyi demək olar ki, həll olundu.

Üstəlik, həbsxanalara əsas nəzarət funksiyasının da H.Əlixanovun kurasiyasında olması onun işini itirəcəyinə şübhə yeri qoymurdu. Generalı həmin vaxt işdən çıxarmadılar, görünür, xidmətlərinə görə onun karyerasını bu cür ağır ittihamla bitirmək istəmədilər.

Hüseynağa Əlixanov 1 may 1953-cü ildə Quba rayonunun Yerfi kəndində anadan olub. 1980-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Hüquq-mühafizə orqanlarında əmək fəaliyyətinə 1981-ci ildən başlayıb. Bakı Şəhər Prokurorluğunun baş müstəntiqi, Gəncə şəhər prokuroru, Bakı Şəhər Prokurorluğunun daxili işlər orqanlarında qanunların icrasına nəzarət şöbəsinin rəisi, Bakı şəhər prokurorunun birinci müavini vəzifələrində işləyib. Bakı şəhər prokuroru vəzifəsini icra edib, Baş Prokurorluğun Prokurorluq orqanlarında istintaqa nəzarət idarəsinin rəisi, Bakı şəhər Nizami rayon prokuroru vəzifələrində işləyib. H.Əlixanov 2004-cü ildən ədliyyə orqanlarında xidmətə keçirilərək Ədliyyə Nazirliyinin Məhkəmə İcraçıları Baş İdarəsinin rəisi təyin edilib. 2007-ci ildən 2018-ci ilin mayınadək Penitensiar Xidmətin rəis müavini olub.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# Varlılar maşınlarını baha benzinə görə qazlaşdırır



## Ərşad Hüseynov: "Azəbaycanda nəqliyyat qurumlarına tövsiyə olunub ki, nəqliyyat vasitələrini sıxılmış qaz sisteminə keçirsinlər"

**Azərbaycanda benzinlə işləyən avtomobillərə sıxılmış qaz sistemlərinin (LPG) quraşdırılması sürətlənib. Bunun əsas səbəbi ənənəvi yanacaq növlərinin qiymətlərinin artmasıdır. Böyük həcmli mühərrikləri olan avtomollərin xərcləri artıq imkanları geniş olan sahiblərinin gözünə də az görünmür. Odur ki, varlılar "acgöz" mühərrikli maşınlarına sıxılmış qaz sistemlərini quraşdırılmasına üstünlük verməyə başlayıblar.**

Belə sistem 4 silindirli "VAZ" markalı nəqliyyat vasitəsi üçün 700-800 manat, məsələn, "Dodge Durango" markalı, 6 silindirli mühərriklə təhciz olunmuş avtomobil üçünsə 1550 manatdan başlayır. Azərbaycanda EKO qaz kimi tanınan bu yanacaq növü sistemləri quraşdıran texniki təmir stansiyaları az deyil. Sıxılmış qaz satan yanacaqdoldurma məntəqləri isə əksinə, tələbata uyğun sayda deyil və ya şəhərin əksər yerlərində belə YDM-lər yoxdur.

Ümumiyyətlə isə dünyada, xüsusən Avropa ölkələrində EKO qaz sistemi ilə işləyən avtomobillərə üstünlük verilir. Azərbaycanda belə sistemlərin quraşdırılması getdikcə kütləvi hal almaqdadır.

**EKO qaz sistemlərinin quraşdırılması və təhlükəsizlik tədbirləri ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynovun fikirlərini öyrəndik.**

**Ekspert deyir ki, LPG sistemli avtomobillərin artması ümumilikdə ölkədə nəqliyyatın ekologiyaya vurduğu ziyanın qarşısını almaqda irəliləyişə səbəb olacaq:** "Bu gün dünyanın hər yerində sıxılmış qazla işləyən nəqliyyat vasitələrinə üstünlük verilir. Avropanın inkişaf etmiş ölkələrində, Fransada, İtaliyada iri avtobusları, yük avtomaşınlarını kütləvi surətdə sıxılmış qaz sisteminə keçirməyə başlayıblar. Sıxılmış qazın 2 üstünlüyü bu addımları şərtləndirir - sıxılmış qaz ekoloji cəhətdən daha təhlükəsizdir, yanma məhsulları ətraf mühitə az ziyan vurur. Tərkibi propan, metandır, yananda kükürd qazları, nitrat oksidləri əmələ gəlmir. Benzinin yanma məhsullarından qat-qat təhlükəsizdir. Bir də sıxılmış qaz benzindən qat-qat ucuzdur. Ucuzluğunun səbəbi də istehsalının daha asan və tez başagələn



olmasıdır. Nefti benzinə çevirmək üçün böyük bir zavod tikilməli, böyük sərmayə qoyulmalıdır. Xüsusi laboratoriya olmalı, mürəkkəb kimyəvi proseslər aparılmalıdır. Sıxılmış qazı almaq üçün təbii qazın tərkibini bir qədər saflaşdırırlar, yüksək təzyiq altında sıxırlar, nətliyyatda istifadə edilən yanacaq kimi istifadəyə yararlı hala gəlir. Buna görə də dünyanın hər yerində sıxılmış qaza kütləvi keçid dövrü yaşanmaqdadır".

**Ekspert deyir ki, Azərbaycanda da artıq iki dövlət qurumu - Dövlət Neft Şirkəti ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə araşdırma aparıblar. Araşdırmalardan sonra nəqliyyat qurumlarına tövsiyə olunub ki, nəqliyyat vasitələrini sıxılmış qaz sisteminə keçirsinlər:** "Bu, çox gözəl təşəbbüsdür. Vətəndaşlar öz nəqliyyat vasitələrini sıxılmış qaz sisteminə keçirirsə, həm maddi cəhətdən qazanırlar, həm də ekologiyaya zərərləri qat-qat azaltmış olurlar. Azərbaycan qanunlarında nəqliyyat vasitələrinin sıxılmış qazla işləməsi nəzərdə tutulur. Kim öz nəqliyyat vasitəsini sıxılmış qaz sisteminə keçirmək istəyirsə, Baş Dövlət Yol Polisi İdarəsinin Elmi Tədqiqat Laboratoriyasına avtomobilini təqdim etməklə müraciət etməlidir. Laboratoriyadan sıxılmış qaz sisteminin nəqliyyat vasitəsinə quraşdırılması üçün rəy alınmalıdır. Rəy almaq üçün xüsusi bir prosedur yoxdur. Dünyada formalaşmış təcrübə var. Belə sistemi müasir benzin mühərrikli maşınlarda quraşdırmaq çox sadədir. Dizel yanacağı ilə çalışan mühərriklərə də bu sistemin quraşdırılması mümkündür, amma əlavə hissələr lazımdır. Ümumi götürəndə sıxılmış qaz sisteminin bütün nəqliyyat vasitələrində quraşdırılması mümkündür. Sürücü sıxılmış qaz sisteminin quraşdırılması haqda rəy alandan sonra sistemin quraşdırılmasını təmin edir. Sıxılmış qaz sistemini quraşdıranların xüsusi sertifikatları olmalı, sıxılmış qaz çəninin, qaz çənindən sıxılmış qazı mühərrikə çatdıracaq magistral kəmər, sıxılmış qazı mühərrikə ötürəcək qurğular da uyğun olmalıdır. Həmin sistemi quraşdıran şirkət xüsusi arayış verir və həmin arayışda yazılır ki, quraşdırılan sistem təhlükəsizlik qaydalarına uyğundur. Buna zəmanət verilir. Sürücü sıxılmış qaz sisteminin quraşdırılması haqda arayışla yol polisinə müraciət edir. Nəqliyyat vasitəsinə texniki baxış keçirilir, qeydiyyat şəhadətnaməsi verilir. Sənədlərin dəyişdirilməsi üçün ümumilikdə 45 manat dövlət rüsumu ödənilir. Rəyin verilməsi üçün rüsum yoxdur".

**Ekspert deyir ki, sıxılmış qaz sistemi quraşdırılan nəqliyyat vasitələrinin fərqləndirilməsi həyata keçirilmir:** "Qanunvericilikdə sıxılmış qazla işləyən nəqliyyat vasitələrinin xüsusi bir fərqləndirmə nişanı nəzərdə tutulmayıb. Xaricdən Azərbaycana gətirilən və istehsalçı tərəfindən sıxılmış qaz sistemi quraşdırılan nəqliyyat vasitələri üçün əlavə hər hansı bir sənədin alınması tələb edilmir".

Baş Dövlət Yol Polisi İdarəsindən bildiriblər ki, yanacaq sisteminin dəyişdirilməsi ilə bağlı müvafiq rəy alınmalıdır. İcazə alındıqdan sonra müvafiq lisenziyası olan, texniki təmir stansiyalarında zəmanətlə bu sistem quraşdırılır. Quraşdırılmadan sonra yanacaq sisteminin dəyişdirilməsi ilə bağlı Dövlət Yol Polisində təkrar qeydiyyat aparılır. Avtomobilin şəhadətnaməsində hansı qaz yanacağı ilə işləməsi barədə xüsusi qeydlər yazılır".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Odlar yurdunda yanan pərvanələr

Zamin HACI
zaminhaci@gmail.com

“Səhrada dəvəsi ölən ərəblə, Bakıda həvəsi ölmüş ərəbin fərqi yoxdur”

*(postmodern ata sözü)*

**Bakıda ərəb turistlərin bir növ eşq soyqırımına uğraması artıq dünya miqyasında diqqətləri çəkməkdədir. İraqdan bu münasibətlə məşhur bloqçunu göndəriblər, qardaş gəlib gizli çəkilişlər edib, bizim hotellərdə, barlarda, gecə klublarında yüngül tumanlı qadınların ovuna çıxan ərəb turistlər haqda geniş veriliş hazırlayıbdır. Çünki Azərbaycana gələn ərəblərin meyiti geri qayıtdıqca buna diqqət yaranmışdır. Hətta ərəb analar Babəkin vaxtından bəri üzü şimala baxıb bu cür ağlar qalmayıbmış.**

Fikir verdinizsə, bayaq əxlaq sözünü işlətmədim, tuman yazdım, çünki fahişəliklə məşğul olanlara yüngül əxlaqlı deyilməsi, məncə, yanlışdır; əxlaqı dildə qurşaqdan aşağı endirdiyimiz üçün hamı əxlaqsızlıq deyiləndə ancaq seksual hərəkətləri nəzərdə tutur, bu isə kökündən yanlışdır. Yalançılıq, yaltaqlıq, rüşvətxorluq əxlaqsızlığın daha pis formalarıdır. Fahişə uzağı özünə məxsus olanı - bədənini satırsa, yalançılar və rüşvətxorlar öz xalqını, dövlətini, mənliyini, ləyaqətini, gələcək və keçmişini satır. Xüsusilə rüşvətxorluq daha böyük fahişəlik tipidir. Nəsə, geniş təmadır və yetərincə pafos lazımdır, inşallah bir gün yaxşı qaz balonu götürüb buna ətraflı girişərik. Qayıdaq regionun lider dövləti olmağımıza. Çünki antireklam da bir reklamdır və həmin ərəb televiziyaları Azərbaycanda eşqbazlıq yolunda həlak olan vətəndaşlarını göstərdikcə başqa ərəblərdə də buna maraq yaranacağı şübhəsizdir. Baxarsınız, bu verilişdən sonra turizm sektorumuzda artım olacaqdır, qeyri-neft sahəsi inkişaf edəcəkdir. Prinsipcə, bizim üçün elə bir fərqi də yoxdur, hər ikisi üz qaramızdır.

Bəli, cümhuriyyətimizin ismi-şərifi hüdud-əl aləmdə asimana bülənd olacaqdır. Özüm ərəbcə yazıram ki, mövzuata uyğun gəlsin. Şair məhz bu məqamda ərz edibdir: “Nalədəndir ney kimi avazeyi-eşqim bülənd, Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd”. Bunu yazanda yadıma Kərim Nalə düşdü, belə bir yazıq adam var idi, indiki uşaqlar xatırlamaz.

Dünya seksual turizm mərkəzləri sırasına Tailand, Ukrayna, Braziliya, Keniya, Kambodca, Niderlandın Amsterdam şəhəri, İndoneziyanın Bali adası, Kosta Rika, Filippin, Kuba və başqaları ilə yanaşı (oxucu fikirləşir: “Sən bunları haradan tanıyırsan?”; bədgüman olmayın, siyahını internetdən götürmüşəm) əziz-doğma Bakımızın qoşulması qəlbimizi fərəhlə doldurur. Ancaq çalışmaq lazımdır bu işlərdə bir qayda-qanun yaradılsın. Misal üçün, ərəb turistlərə bəlkə də şərab və Viaqra satışı limitlə olmalıdır. Səhənin əməkdaşı olan xanımlar (“bizimki də o işlə məşğuldur, ancaq sənin kimi təqdim edə bilmirəm” anekdotunu bilən varsa, bu yerdə bir az qımışsın) tibbi yoxlamadan keçməli, həmçinin, ilkin tibbi yardım prosedurlarını məcburi öyrənməlidirlər. Lazım gəlsə, Səhiyyə Nazirliyindən bu sahədə fəaliyyət üçün sertifikat alınmalıdır. Yoxsa ərəb bloqçu verilişində gopa basırdı ki, guya Bakıda 8 min ərəb QİÇS-ə (SPİD) yoluxubdur. Yəqin müəyyən yoluxma olub, ancaq rəqəm çox şişirdilmişə bənzəyir. Bu yolla bizə qara yaxırlar. Yəqin xaricdən maliyyələşən qara qüvvələrin, ermənilərin də bu şər-xatada əli vardır. İstəyirlər bizim bu qeyri-neft sektoru onlara tərəf sürüşsün. Xarici İşlər Nazirliyi hara baxır?

Sözgəlişi, şairin tam bu detala uyğun da bəndi vardır, gəlin onu diqqətlə oxuyaq: “Eşqdən canımda bir pünhan mərəz var, ey həkim, Xəlqə pünhan dərdim etmə izhar, zinhar, ey həkim”. Fantastikadır. Sanki Bakıda eşqbazlıq zamanı pis xəstəliyə yoluxub Bağdada, Dubaya və sair müqəddəs müsəlman mərkəzlərimizdə dönmüş ərəb qardaşımızın ağır dərdi bu misralarda qələmə alınmışdır. Gedib orda həkimə deyir ki, gör neynirsən, bir əlac yap, ancaq camaat bilməsin. Amma anan bilməsin - bir xalq mahnımızda deyilən kimi.




# KTMT-yə üzvlük məsələsi bitdimi?

## Politoloq: “Azərbaycan ictimaiyyətinin KTMT-yə üzvlük məsələsinə müsbət yanaşmadığı özünü göstərdi”

**Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlük, bu mümkün olmayacağı halda ən azından müşahidə qismində üzvlüyü məsələsi bu yay ən çox müzakirə olunan mövzulardan biri oldu. Avqust ayında bu mövzu o dərəcədə aktuallaşmışdı ki, ölkəmizin bu hərbi ittifaqla bağlı qərar vermək üzrə olduğu təəssüratı yaranırdı. Lakin sentyabr ayı başlayandan KTMT mövzusu sanki arxa plana keçib. Diqqət çəkən məqamlardan biri də odur ki, Azərbaycan prezidentinin 1 sentyabrda Rusiyaya rəsmi səfəri zamanı prezident Vladimir Putinlə görüşdən sonra mətbuat üçün verilən açıqlamalarda KTMT barədə heç bir fikrə rast gəlinmədi. Bir sıra ekspertlər hesab edir ki, bu amil də KTMT məsələsinin gündəmdən çıxmasına səbəb olan amillərdən sayıla bilər.**

Bu barədə “Yeni Müsavat”a şərhində **politoloq Natiq Miri** bildirdi ki, KTMT məsələsinin Azərbaycanda dövriyyəyə buraxılması həm ictimai rəyi yoxlamaq, həm Moskvaya verilən bir mesaj idi. Azərbaycan prezidentinin son Rusiya səfərindən sonra KTMT məsələsi demək olar ki, kənara qoyuldu: “Belə görünür ki, Rusiya Azərbaycanın KTMT-yə üzvlüyü və ya müşahidəçi statusda üzvlüyündən doğa biləcək nəticələrə o qədər müsbət yanaşmır. İkincisi, Azərbaycan ictimaiyyətinin KTMT-yə üzvlük məsələsinə heç də müsbət yanaşmadığı qısa müddətdə sosial mediada özünü göstərdi. Azərbaycanın onun torpağını işğal edən Ermənistanla hərbi ittifaqda ola bilməsinin mümkünsüzlüyü dəfələrlə bəyan edilib”.

Politoloq hesab edir ki, ola bilsin bir müddət sonra yenidən hansısa vədlər ortaya çıxsın və KTMT məsələsi aktuallaşsın. Ancaq bu az ehtimal olunandır. Ona görə də xeyli müddət üçün KTMT söz-söhbətini bitmiş saymaq olar. KTMT məsələsi uzun müddət müzakirə obyekti olmayacaq.

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) 15 may 1992-ci il tarixində əsası qoyulmuş hökumətlərarası hərbi ittifaqdır. 1992-ci ildə Müstəqil Dövlətlər Birliyinə üzv olan altı postsovet dövləti olan Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan Kollektiv Təhlükəsizlik Müqaviləsi imzalayıblar. 2002-ci ildə isə həmin altı ölkənin razılığı ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adı altında hərbi ittifaq təşkil olunub. Özbəkistan 2006-cı ildə yenidən KTMT-yə üzv olsa da, 2012-ci ildə təşkilatı tərk edib. Yeni yaradılmış təşkilatın baş katibi vəzifəsinə Nikolay Bordyuja təyin olunub. 23 iyun 2006-cı ildə Özbəkistan KTMT-nin tam hüquqlu üzvü elan olunub və 28 mart 2008-ci ildə özbək parlamenti üzvlüklə bağlı qanunu ratifikasiya edib. 2012-ci ildə isə Özbəkistan təşkilata üzvlükdən imtina edib. KTMT BMT Baş Assambleyasında müşahidəçi təşkilat kimi qeydiyyatdan keçib. KTMT-də “rotasiya qaydasında sədrlik” sistemi fəaliyyət göstərir ki, bunun da nəticəsində təşkilata rəhbərlik edən ölkə hər il dəyişir. Hazırda KTMT-nin baş katibi erməni general Yuri Xaçaturovdur.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Amerika GÜAM-ı yaratdı və sonra arxasından qaçdı

## Əhəd Məmmədli: “GÜAM-ın varlığı Vaşinqton və Brüsselə lazımdır”




**BMT Baş Assambleyası çərçivəsində GÜAM ölkələrinin xarici işlər nazirlərinin görüşünün təyin olunması bu qurumu son günlərdə yenidən gündəmə gətirib. Təşkilatın son illərdə fəaliyyətsiz olması, getdikcə “ölü quruma” çevrilməsi daha çox müzakirə obyektinə çevrilib.**

GÜAM ətrafında yeni-yeni iddialar meydana çıxır. Xüsusilə 1997-ci ildə bu təşkilatın Amerika tərəfindən yaradılması iddiası son vaxtlar daha çox səslənir. Belə fikirlər var ki, daim Rusiyanın təşəbbüsü ilə yaradılan qurumlara alternativ qurum yaratmağa çalışan Birləşmiş Ştatlar 21 il öncə məhz GÜAM formatını ortaya atıb. Ən çox sual doğuran məsələ isə rəsmi Vaşinqtonun bu təşkilatın arxasından qaçması və onun taleyinə olan biganəliyidir. Sanki ABŞ GÜAM-ın getdikcə tarix olduğunu görmür. Hər kəsə bəllidir ki, Amerikanın bu regionda maraqlarının təmin olunmasına GÜAM mühüm rol oynayacaq qurumdur. Ekspertlər hesab edirlər ki, Ağ Ev istədiyini GÜAM xətti ilə uzun illər həyata keçirmədiyi üçün bu təşkilatdan dəstəyini geri çəkib.

**Siyasi şərhçi Əhəd Məmmədli bildirdi ki, postsovet məkanı ölkələrinin toplaşdığı qurumların hamısı “ölü” vəziyyətdədir:** “MDB, GÜAM, bir azdan KTMT, Avrasiya İttifaqı da ölü quruma çevriləcəklər. Keçmiş SSRİ respublikalarını bu cür əhəmiyyətsiz qurumlarda saxlamaqla Rusiya eqolarını təmin etmək istəyindədir. Lakin GÜAM bir az fərqlidir. MDB-nin daxilində Rusiyaya qarşı qurulan müxalif təşkilatdır. GÜAM-ın birdən-birə yenidən dirildilməsi tapşırığı yəqin Vaşinqtondan gəlib. Çünki təşkilatın ayaqda saxlanılması lazımdır. Moskvaya alternativ qurum kimi GÜAM-ın varlığı bu qurumda olan ölkələrə lazımdır. Moskvanın şantajlarına, hücumlarına qarşı ancaq birlikdə cavab vermək olar. GÜAM-ın varlığı Vaşinqtonla Brüsselə də lazımdır, Moskvaya öz meydanında təzyiq etmək üçün. İstənilən halda belə görüşlərin əhəmiyyəti var. GÜAM-a üzv olan ölkələrin hər biri üçün bu qurum çox vacibdir. GÜAM-da təmsil olunan ölkələrin hamısı ərazi bütövlüyündən əziyyət çəkirlər. Bu təşkilat vahid problemdən əziyyət çəkən dövlətlərin birliyidir. Və bu problemin başında Rusiya durur. Bu cür təşkilatlar duran yerdə qurulmurlar. Təbii ki, GÜAM-ın qurulmasında Amerikanın rolu var. Bu baxımdan aydın məsələdir ki GÜAM-ın qurulmasında Vaşinqtonun da, Brüsselin də rolu var”.

**Siyasi ekspert onu da qeyd etdi ki, vəd verib sonradan vədi yerinə yetirməmək Qərbin çoxdankı xüsusiyyətidir:** “ O vaxt GÜAM lazım olduğu üçün quruldu. Sonra ehtiyata atıldı, indi yenə ehtiyatdan çıxarılır. Düzdür, Gürcüstan və Ukrayna Rusiyanın təcavüzünə məruz qaldı, amma ümumilikdə götürdükdə Ukraynanı da, Gürcüstanı da ABŞ Rusiyanin əlindən aldı. Rusiya Ukrayna və Gürcüstanın 20%-i işğal etsə də, 80%-ni itirdi. Düzdür Moskva cəhd edir ki, Gürcüstan və Ukraynanı geri qaytarsın. Amma bütün etdiklərindən sonra çətin ki, buna nail ola bilsin. Ona görə düşünmürəm ki, ABŞ GÜAM ölkələrini Rusiyaya uduzdu, əksinə, ən azı GÜAM ölkələrinin yarısı ABŞ-ın nəzarətindədir. GÜAM-ı yenidən dirçəltməklə görünür ki, ABŞ qalan 50%-i də öz nəzarətinə götürmək istəyir. Krım, Donbas və Suriyada Rusiyanın uğurlarına rəğmən, ümumilikdə baxdıqda postsovet məkanında Rusiya mövqelərini itirir. Ermənistanda belə ”məxməri inqilab" baş verib Qərbyönümlü qüvvələr hakimiyyətə gəlirsə, Kreml ciddi düşünməlidir. Nə vaxta qədər ki, GÜAM ölkələri separatçılıqdan əziyyət çəkəcək, bu təşkilat həmişə öz varlığını qoruyub saxlayacaq".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018



# PKK-çılar və QRU diversantı Qarabağda-Bakıdan reaksiya

## Akif Nağı: "Yayılan xəbərləri sübuta yetirməyin yolu budur"

**Türkiyənin Atatürk Universitetinin tarix üzrə elmlər namizədi Savaş Eyilmez Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərində-Laçın və Kəlbəcərdə PKK düşərgələri qurduğunu bildirib. Professorun sözlərinə görə, Laçın və Kəlbəcərdə PKK düşərgələrinin olması "tam dəqiqdir". Eyilmez deyib ki, Ermənistan 1992-ci ildən bəri öz torpaqlarını PKK düşərgələrinə açıb. Hazırda Gümrü, Spitak və Yerevan yaxınlığında ciddi terror düşərgələri mövcuddur. Eyni zamanda işğal etdiyi Azərbaycan ərazilərində də terror düşərgələrini uzun illərdir yaradıb.**



Qeyd edək ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın müxtəlif ölkələrdən terrorçular yerləşdirdiyi, hətta terror qruplarının təlim düşərgələrinin yaradıldığı barədə informasiyalar, açıqlamalar indiyə qədər dəfələrlə yayılıb. Hətta Qarabağ savaşında Türkiyə, Livan və digər ölkələrdən erməni mənşəli PKK-çıların azərbaycanlılara qarşı döyüşlərdə iştirakını təsdiqləyən görüntülər də mövcuddur.

Azərbaycanın dövlət rəsmiləri də işğal olunmuş ərazilərimizdə ermənilərin terrorçular cəmləşdirdiyini, Dağlıq Qarabağ ərazisində narkotik və qanunsuz silah dövriyyəsi olduğunu dəfələrlə qeyd ediblər.

Bəs Azərbaycan vaxtaşırı yayılan bu kimi məlumatları dəqiqləşdirmək üçün və dəqiqdirsə, terrorçuların Qarabağda yerləşməsinin qarşısını almaq üçün nələr etməlidir?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, PKK-nın Ermənitanla əlaqələrinə dair faktlar məlumdur, hətta Türkiyədə geniş yayılmış fikrə görə, PKK erməni terrorçular tərəfindən yaradılıb. PKK sıralarında ermənilərin olması zaman-zaman təsdiq edilib. Ona görə də işğal olunmuş ərazilərimizdə PKK düşərgələrinin salınması tam mümkündür:** "Bu faktı yoxlamaq üçün Azərbaycan beynəlxalq qurumlara müraciət edə bilər və bunu maraqlı tərəf kimi Türkiyə ilə birlikdə etsə daha effektli olar. Amma bu müraciətə müsbət reaksiya veriləcəyinə ümid azdır. Bir sıra Avropa ölkələrinin PKK-ya dəstək verdiyi məlumdur, ona görə də onlar bu məsələnin araşdırılmasına imkan verməyəcəklər. Digər variant kimi, Türkiyə və Azərbaycan antiterror əməliyyatı keçirərək faktı yerində təsdiq edə bilər. Yayılan xəbərləri sübuta yetirməyin yolu budur. Beynəlxalq hüquq Azərbaycanın öz ərazilərində bu cür əməliyyat keçirməsinə tam imkan verir".

**Bu arada Rusiyanın çoxtirajlı "Arqumenti nedeli" nəşri Ukraynanın Donetsk vilayətində rusiyameylli separatçıların tərəfində döyüşən QRU diversantı Oleq Prizrak və bölüyü barədə yazı dərc edib. Virtualaz.org xəbər verir ki, nəşr öz məqaləsində Prizrakın dəstəsinin Ukrayna ordusuna və "Sağ sektor" könüllülərinə qarşı çoxsaylı diversiya əməliyyatlarından bəhs edib.**

"Onlardan Ukrayna ordusu qorxur. Onlar Ukrayna silahlı qüvvələrinin mövqelərinə yaxınlaşır, sonra Ukrayna KİV-ləri hərbi texnikanın partladılması haqda xəbər yayır. Üstəlik, onlar düşmənin mövqelərindən onların bayraqlarını oğurlayır. Kinoda belələrini diversantlar adlandırırlar. Əslində isə onlar, sadəcə olaraq, kəşfiyyatçılardır"-qəzet Oleq Prizrak və dəstəsi barədə reportajına belə başlayır.

Prizrak növbəti reydlərindən birində "Sağ sektor" könüllülərinin mövqeyində hərbi texnikanı gizlicə minalayıb və onun dəstəsi 1 kilometr aralanandan sonra dalbadal partlayışlar baş verib. Bu vaxt Prizrak və adamları özlərinin saldığı meşə cığırı ilə geri qayıdırdı, çantalarında isə Ukraynanın və "Sağ sektor"un oğurlanmış bayraqları vardı. Diversantlar bu bayraqların yerində Rusiya bayrağını asmışdılar.

Prizrak və dəstəsi həmin reyddə az qala bir həftəyə yaxın Ukrayna mövqeləri yaxınlığında sürünüblər, maskalanmış texnikanı axtarıblar. Nəhayət, Ukrayna millətçilərinin mövqelərində dayanan müşahidəçilərin yatdığını görüb onların səngərlərinə daxil olublar. Bir BTR, iki BMP və bir tank minalanıb. Və diversantlar uzaqlaşandan sonra partlayışlar başlayıb.

Oleq Prizrak Donetskdə separatçıların tərəfində döyüşməyə yollanmazdan əvvəl daha iki yerdə olub, amma onların adlarını çəkmək olmaz. Çünki diversantın missiyası məxfi olub. Amma o, Dağlıq Qarabağda, Əfqanıstanda QRU xüsusi təyinatlı dəstələrinin tərkibində snayper kimi fəaliyyət göstərib, bunları gizlətmir. Deyir ki, Donbasa "könüllü kimi" gəlib. Rostovdan Ukrayna ərazisinə keçəndə orada Rusiyadan olan çoxlu "könüllü" ilə rastlaşıb. Separatçılar əlbəttə ki, Oleq kimi peşəkar diversantın imkanlarını layiqincə qiymətləndiriblər və onu kəşfiyyat rotasında bölük komandiri təyin ediblər. Və o vaxtdan Prizrak tez-tez Ukrayna ordusunun mövqelərinə reydlər həyata keçirib müxtəlif diversiyalar törədir.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# 11 sentyabrdan sonra eybəcərləşən dünyanın qan teşti



**Xalid KAZIMLI**

**Dünya tarixinin ən irimiqyaslı və ən səs-küylü terror aktlarından (11 sentyabr 2001-ci il) keçən 17 il çox sürətlə axıb getdi. Elə bil dünən idi. Hər saatına, anına, söz-söhbətinə qədər aydın şəkildə xatırladığımız müdhiş günlər...**

Hadisənin baş verdiyi ilk dəqiqələrdə, hətta ABŞ xüsusi xidmət orqanlarından da əvvəl terror aktının müəllifinin adı çəkilməyə başlamışdı - Üsamə bin Laden.

Bu, tavandan götürülmüş versiya deyirdi. Əkiz qüllələrin, Pentaqonun baş binasının taran edilməsinin məhz bin Laden tərəfindən təşkil olunması iddiasında olanlar bir neçə il öncə Keniyanın paytaxtı Nayrobidə ABŞ səfirliyinə qarşı törədilmiş dəhşətli terror aktını xatırlayırdılar.

Dəst-xətt eyni idi. Hədəf də həminkiydi. Sadəcə, bu dəfə hədəf yerüstü taranla yox, havadan vurulmuşdu.

O zamanlar könüllü şəkildə ölümə gedən kamikadzelər qrupu yalnız bin Ladenin sərəncamındaydı. "Əl-Qaidə" bir ucdan kamikadzelər yetişdirir, ölümə göndərirdi. Başqa heç bir terror təşkilatının bu qədər gücü yox idi.

Şəriət əsaslı dövlət, daha dəqiqi, islam imperiyası (xilafət) qurmaq istəyən ekstremistlər qarşılarında ən böyük maneə olaraq ABŞ-ı görürdülər, bu dövlətin "şər-şəbədə yuvası" olduğuna inanır, onu sarsıtmaq istəyirdilər.

Ancaq təbii ki, 3-4 binanı ələ keçirilmiş 3-4 sərnişin təyyarəsi ilə vurmaqla ABŞ-ı sarsıtmaq mümkün deyildi. Bu dövlətin şəhərlərinə on atom bombası atılsa belə, sarsılan, yox olan, təslim olan deyil. Çünki qüdrətli dövlətdir, 50 dövlətin birləşməsindən ibarət meqa-dövlətdir.

Ona görə də dini ekstremistlər 11 sentyabra görə ağır bədəl ödədilər. O zamana qədər onlar Əfqanıstanda hakimiyyətdə idilər, şəriət dövləti qurmuşdular, rəsmi olmasa da bin Laden bu dövlətin lideriydi.

Çox çəkmədi, ABŞ bin Ladenin rəhbərlik etdiyi "Taliban" rejimini darmadağın etdi. Onların çoxu Pakistan sərhədindəki əlçatmaz Tora-bora mağaralarında gizlənməli oldular. Ara yerdə ABŞ köhnə dəftəri açdı, İraqın müstəbidi Səddam Hüseynlə də haqq-hesab çəkdi.

Budur, 17 ildir ki, Yaxın Şərq qan çanağına dönüb. Əfqanıstan, Pakistan, İraq, Suriya, Yəmən, Liviya, Fələstin və başqa ölkələrdə qan teşti qaynayır. Paris, London, Madrid, Berlin, Moskva, İstanbul, Ankara, Brüssel kimi iri şəhərlər terror aktlarına hədəf olurlar.

Dünya 11 sentyabrdan əvvəl çirkin idisə, 11 sentyabrdan sonra daha da eybəcər olub.

Xeyli zəiflədilmiş, liderləri öldürülmüş "əl-Kaidə"nin yerini daha dəhşətli İŞİD terrorçuları tutmuşdular, indi onlar da güclərini itiriblər, yaxud da transformasiya dönəmindədirlər.

Prinsipcə, 11 sentyabrdan sonra 3-cü dünya müharibəsi başlayıb və sərhədləri, cəbhələri qarışıqdır. Bu müharibədə düşmənlər və müttəfiqlər dəyişir, kim kiminlə dostdur, düşməndir, bilinmir, dünən müttəfiq olanlar bu gün düşmən olur, sonra yenə dostlaşırlar və s.

Aradan keçən bu 17 ildə 11 sentyabr teraktları ilə bağlı çox söz-söhbət olub. Onların içində getdikcə populyarlaşan versiya budur ki, bu terror aktlarını ABŞ xüsusi xidmətləri təşkil edib və İsrail kəşfiyyatının da bundan xəbəri olub.

İkincini istisna etməmək olar, dünyada olan-bitən hər şeydən bu və ya digər şəkildə xəbərdar olan İsrail kəşfiyyatı hazırlanan irimiqyaslı terror aktından dəqiqliyi ilə olmasa da, müəyyən dərəcədə məlumatlı ola bilər.

Ancaq birinci istisnadır. Heç bir dövlət özünü bu qədər alçaldıcı zərbələrə və məbləği trilyonlarla ölçüləcək maddi zərərə məruz qoymazdı.

Bir baxaq: ABŞ bu müdhiş avantüranı edərək nə qazandı? İraqda və Əfqanıstanda apardığı müharibədə trilyonlarla dollar və minlərlə əsgər itirdi, dünya miqyasında nüfuzu sarsıldı, beynəlxalq ictimaiyyətin gözündə bədheybətə çevrildi, 17 ildir ki, orda-burda müharibə aparır və s. İraq neftindən qazandığı bunların yanında bir damladır. Əfqanıstandakı narkotik ticarətinin faydasını isə dövlət yox, ayrı-ayrı yüksək rütbəli hərbçilər görə bilər.

11 sentyabr teraktlarını törədənlərin adbaad bəlli olduğu, terrorçuların kimlər tərəfindən təlimatlandırıldığı bilindiyi halda, durub nağıllar uydurmaq havayı işdir. Bu, ABŞ-da, Avropada müzakirə mövzusu belə deyil, Şərqdə bu əfsanələrə inananların sayının ilbəil artması heç nəyi dəyişməyəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**







# Ermənistan danışıqlardan niyə yayınır?

## Rəsmi İrəvan Qarabağ danışıqlarına "hazır" olduğunu desə də, bu ölkənin hökumətinin əməlləri əksini deyir; Zoqrab Mnatsakanyanın görüş anonsu nəyə hesablanıb?

**Ermənistanın xarici işlər naziri Zoqrab Mnatsakanyan yaxın vaxtlarda azərbaycanlı həmkarı Elmar Məmmədyarovla görüşəcəyini açıqlayıb. Bununla bağlı Ermənistan mediasına danışan nazir görüş vaxtını konkretləşdirməyib.**

Bu açıqlamanı verərkən Mnatsakanyanın kifayət qədər korrekt görünməyə çalışması da diqqət çəkir. "Görüşün vaxtı barədə elanı eyni vaxtda bəyan edəcəyik ki, qarşılıqlı hörmət prinsipi pozulmasın. Brüsseldə Azərbaycan XİN rəhbəri ilə görüşdə yenidən bir araya gəlmək barədə razılaşdıq. Bu görüş çox yaxın vaxtlarda olacaq" - Ermənistan XİN başçısı deyib. 11 sentyabrdakı brifinqdə sualları cavablandıran nazir ölkəsinin danışıqlar prosesində iştirak etməyə hazırlığını və danışıqları davam etdirmək öhdəliyinin olduğunu iddia edib.

Zoqrab Mnatsakanyanın konstruktiv görünməyə cəhd etdiyi bəllidir. Onun nə dərəcədə "danışıqlar tərəfdarı olduğunu" Ermənistan müdafiə naziri David Tonoyanla birlikdə Naxçıvan istiqamətindəki cəbhə xəttinə səfəri və buradakı hərbçilərlə görüşüb onları cəsarətləndirməyə çalışması da sübut edib. Fakt budur ki, Ermənistan hökumətinin başçısı Paşinyan bir-birinin ardınca ziddiyyətli Qarabağ bəyanatları verir və bütün səylərini danışıqları pozmağa yönəldib. Baş nazir seçiləndən dərhal sonra Dağlıq Qarabağın danışıqlarda "tərəf" kimi iştirak etməsini zəruri sayan Paşinyan bu günlərdə növbəti dəfə həmin mövqeyinə qayıtdı. N.Paşinyan danışıqların formatının ATƏT çərçivəsində hələ illər öncə konkretləşdirildiyi barədə həmsədr ölkələrin, o cümlədən Rusiya rəsmilərinin mövqeyini nəzərə almadan bir daha Xankəndinin danışıqlarda ayrıca subyekt olaraq tanınması istiqamətində mənasız cəhdlər göstərdi. Ancaq eyni zamanda o, Rusiyadakı ermənilərlə görüşü zamanı "mənim nəzərimcə, Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsidir" kimi sərsəm fikir səsləndirdi. Gah Dağlıq Qarabağın daxili işlərinə qarışmaq istəmədiyini, gah da Azərbaycanın bu ərazilərinin Ermənistanın tərkib hissəsi olduğunu iddia edən Paşinyan ermənilərin gözündə belə özü barədə qeyri-ciddi rəy yaradıb. Bütün bunlar isə təbii olaraq danışıqların davamını mümkünsüz edir. Ancaq maraqlı olan "Rusiyada erməni baş nazirə Qarabağla bağlı nə deyiblər" sualının cavabıdır. Xüsusilə aprel döyüşlərindən sonra rusiyalı politoloqlar Moskvanın ətraf 5, yaxud 7 rayonun qaytarılması ilə bağlı Rusiyanın Ermənistana təzyiq etdiyi barədə davamlı məlumatlar yayırdılar. Ancaq N.Paşinyan məhz Rusiya mediasına müsahibəsində iddia etdi ki, o, Dağlıq Qarabağ deyərkən elə ətrafdakı rayonları da nəzərdə tutur, çünki bu rayonlar Dağlıq Qarabağa "birləşdirilib". Zaman keçdikcə N.Paşinyanın sərsəmləmələri də çoxalır.

Azərbaycan XİN erməni baş nazirin son açıqlamalarına reaksiyasında bildirmişdi ki, Ermənistanın yeni baş naziri ilk addım kimi Ermənistan əhalisinin çoxdan ehtiyac duyduğu iqtisadi-sosial islahatlara başlamaq əvəzinə Dağlıq Qarabağ mövzusuna müraciət edərək siyasi aqitasiyaya üstünlük verir. "Təəssüf edirik ki, bu məqsədlə o, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi haqqında ziddiyyətli açıqlamalarla çıxış edir" - rəsmi bəyanatda deyilir. XİN-dən bildirilib ki, Ermənistan BMT nizamnaməsinə zidd olaraq gücdən istifadə etməklə Azərbaycanın Dağlıq Qarabağ və digər ətraf rayonlarını işğal edib və işğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlıya qarşı qanlı etnik təmizləmə törədib. "Biz hələ də ümid edirik ki, Ermənistanın yeni siyasi rəhbərliyi sələflərinin səhvlərini təkrar etməyəcək, sağlam siyasət yürüdəcək və qonşu dövlətlərlə sülh şəraitində yaşamaq üçün sivil münasibətlər qurmağa çalışacaq" - daha sonra bildirilir. O da qeyd olunub ki, Azərbaycan ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə mövcud gündəlik əsasında münaqişənin tezliklə həlli üçün substantiv danışıqlara hazırdır.

İndi Ermənistan XİN başçısı da danışıqlara "hazır olduğunu" deyir. Yəqin ki, o, bunu BMT Baş Assambleyası çərçivəsində həmsədrlərin iştirakı ilə keçiriləcək görüşü nəzərdə tutur. Ancaq N.Paşinyanın son radikal bəyanatlarının fonunda bu görüşün və danışığın əhəmiyyəti qalmır, çünki məsələləri nazirlər həll etmir. Ermənistan prezidenti A.Sərkisyanı "ofsayt" vəziyyətdə qoyub, danışıqlara özünün gedəcəyini bildirən N.Paşinyanın qırımından isə görünür ki, o, hələlik Azərbaycan prezidenti ilə görüşdən yayınır. Bunun səbəbi açıqlanmasa da, güman etmək olar ki, erməni ekspertlər demişkən, "sükan arxasında naşı adam" olan Paşinyan Azərbaycan lideri ilə görüşdən "sağ çıxa bilməyəcəyini" anladığı üçün təcrübə toplamaq üçün vaxt qazanmağa çalışır. Üstəlik, indiki situasiyada, Ermənistanda mer və parlament seçkiləriqabağı N.Paşinyanın Qarabağla bağlı zəif nöqtələrinin üzə çıxması onu bitirə bilər. Fakt budur ki, Nikol ancaq Qarabağ mövzusunda radikallıq nümayiş etdirməklə oynamağa və ictimai rəydə reytinqini qoruyub-saxlamağa çalışır.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Nikol Paşinyanın ziddiyyətli bəyanatları və davranışları daha çox onun Ermənistandakı daxili vəziyyətlə və onun öz hakimiyyətinə olan inamsızlığı ilə bağlıdır:** "Paşinyan nəyin bahasına olursa-olsun vaxt udmağa çalışır. Diqqət yetirsəniz, İrəvana qayıtdıqdan sonra Paşinyanın verdiyi ilk bəyanatlardan biri "inqilab"dan sonra ona qoşulan parlamentarilər və siyasətçilərlə bağlı olub. Çox güman ki, respublikaçılarla yanaşı, Daşnaksütyun və "Tsarukyan bloku"nun hərəkətə gəlməsi onu ciddi şəkildə narahat edir. Belə olduğu təqdirdə danışıqlar prosesində baş verə biləcək hər hansı bir uğursuzluq onun rəqiblərinin əks-hücum imkanlarını daha da genişləndirə bilər". **E.Mirzəbəyli deyir ki, Paşinyanı dilə gətirən səbəblərdən biri də Azərbaycan prezidentinin Rusiyaya səfərinin nəticələri ilə əlaqədardır:** "Bu səfərdən sonra Ermənistanda Rusiyanın işğalçı ölkədən üz döndərməsi və bunun İrəvana baha başa gələcəyi ilə bağlı fikirlər güclənməkdədir. Paşinyan isə Putinlə görüşündən sonra daha sərt bəyanatlar verməklə Bakı ilə Moskva arasında hər hansı bir razılaşmanın olmadığına diqqət çəkməyə və ictimaiyyəti sakitləşdirməyə çalışır. Azərbaycanın KTMT-yə qoşulacağı təqdirdə Rusiyanın ərazilərimizin işğaldan azad edilməsinə dəstək verəcəyi ilə bağlı mülahizələr ehtimaldan başqa bir şey deyil. Bu barədə ekspert rəyləri, ictimai rəyin yönləndirilməsinə xidmət edən informatik sızdırmalar, mülahizələr ola bilər. Amma bütün bunların həqiqət olduğunu iddia etmək üçün ortalıqda əsas olmalıdır. Əsas isə yoxdur. Rusiyanın Cənubi Qafqaz siyasətinin mahiyyətinə diqqət yetirsək, yaxın zamanda belə bir əsasın ola biləcəyi də gözlənilmir. Rusiyanın nələrin qarşılığında işğalçıya dəstək verməkdən əl çəkəcəyi hələlik müəmma olaraq qalır". **Bəs hazırda Rusiya nə istəyir? E.Mirzəbəyli:** "Bu gün bu suala yüzlərlə cavab tapmaq olacaq. Moskvanın iştahı böyükdür və hər zaman olduğu kimi bizə yenə də "əliaçıq" qafqazlı kimi baxır. Hər şey istəyir, amma qarşılığında heç nə vermək istəmir. Bu, təkcə Rusiyanın dövlət siyasəti ilə bağlı amil deyil, həm də sosial-psixoloji problemdir". **Moskvada erməni baş nazirə nə deyilməsinə gəldikdə, politoloq dedi ki, Putin-Paşinyan görüşündə müzakirələrin hansı istiqamətdə getdiyini, Ermənistanın baş nazirinin hansı öhdəliklər götürdüyünü söyləmək çox çətindir:** "Amma Paşinyanın aşırı radikal bəyanatları onun çox ciddi öhdəliklər altına girməsindən də xəbər verə bilər. Adətən çıxılmaz duruma düşənlər, yaxud məğlub olanlar, güzəştə gedənlər bunu gizlətmək üçün daha bərkdən cığırırlar. Bu baxımdan da Paşinyanın radikallığı da buradan qaynaqlanır. Ermənistanın baş naziri könüllü şəkildə çığırmır, onu çığırdırlar".

**Politoloq Hikmət Hacızadə isə Paşinyanın ziddiyyətli mövqe sərgiləməsində təəccüblü bir şey görmür:** "Paşinyan Rusiya səfərindən qabaq da bu mövqedən çıxış edirdi. Belə çıxışlar ona daxili istifadə üçün lazımdır. Həmçinin Qarabağ separatçıları, Ermənistandakı qatı millətçilərin diqqətini cəlb etməkdə ona belə çıxışlar yardımçı olur. Çünki onun siyasi düşmənləri belə rəy formalaşdırırlar ki, Nikol Qarabağı satmağa çalışır". Maraqlıdır, Moskva səfərində Paşinyan Rusiyadan Qarabağla bağlı dəstək almağı bacarıbmı? H.Hacizadə buna inanmır: "Rusiya ona "Qorxma, mən səninləyəm" deməz. Rusiya deyir ki, artıq hərəkətlər etməsən, onda mən səninləyəm".

Bu arada Ermənistanın bütün ərazisində "Şant-2018" kod adlı komanda qərargah təlimləri başlayıb. Musavat.com xəbər verir ki, sentyabrın 11-dən 14-nə kimi ölkədə şərti olaraq hərbi vəziyyət elan edilir. Qeyd olunur ki, ümumdövlət xarakterli "Şant-2018" təlimləri planlı xarakter daşıyır və xaricdən hücum olunması halında dövlətin müdafiə, habelə dövlət orqanlarının və hərbi rəhbərliyin səfərbərlik hazırlığı yoxlanılır. Erməni mənbələri Ermənistandakı hərbi-siyasi şərtləri, həmçinin şərti düşməni (Azərbaycan nəzərdə tutulur-red.) və ümumi situasiyanı nəzərə alaraq təlimlərin maksimal surətdə həqiqi keçəcəyini bildirirlər. Ermənistanın Azərbaycan qarşısında duruş gətirməsi təbii ki, mümkünsüzdür. Sadəcə, Paşinyan hər vasitə ilə çalışır ki, öz xalqını Azərbaycanla müharibə ruhunda kökləsin və diqqəti xarici düşmənə yönəldib kreslosunda möhkəmlənsin. Danışıqların davam etdirilməsinə hazırlıq bəyanatları da gərginliyin savaş həddinə çatmaması üçün atılan qabaqlayıcı addımdır.

"Qarabağ problemini ancaq Azərbaycan, Rusiya və Ermənistan liderləri həll edə bilər". Bunu isə rusiyalı millət vəkili Leonid Kalaşnikov deyib (axar.az). "Əhəmiyyəti və vacibliyi nə qədər şişirdilsə də, Dağlıq Qarabağ məsələsini hansısa Minsk Qrupu həll edə bilməz. Bu məsələni yalnız 3 ölkənin liderləri həll edə bilər", - Kalaşnikov bildirib. Görünən budur ki, 3 ölkədən ikisi Qarabağda status-kvonun qalmasında maraqlıdır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

# Rusiya Suriyanı Xəzərdən vurarsa...

## Tofiq Abbasov: "Rusiya artıq iki dəfə bu ssenaridən istifadə edib"

## Elçin Mirzəbəyli: "Rusiyanın Xəzərdən Suriyaya zərbə endirməsinə ehtiyac yoxdur"

**Sentyabrın 7-də Tehranda Türkiyə, Rusiya və İran prezidentləri arasında baş tutan zirvə görüşü Suriya probleminin hələ bir müddət də davam edəcəyini göstərdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasındakı gərginlik bir çox məsələləri yenidən gündəm etdi.**

Gündəmə gələn məsələlərdən biri Rusiyanın Xəzər dənizi üzərindən Suriyanı növbəti dəfə vura biləcəyi yönündədir. 2015-ci ilin oktyabr və noyabr aylarında şimal qonşumuz raketlə Suriyaya Xəzər üzərindən zərbələr endirmişdi. Ötən ay Xəzəryanı ölkələr arasında Xəzərin hüquqi statusunun müəyyən edilməsi barədə imzalanan Konvensiyasının Kremlə belə bir imkan verib-vermədiyi yönündə çoxsaylı suallar yaranıb.

**Siyasi təhlilçi Tofiq Abbasov "Yeni Müsavat"a məsələni bu cür şərh etdi:** "Əgər bu məsələnin aktuallığı bir daha gündəmə gəlirsə, burada demək həllolunmaz məsələ yoxdur. Çünki Rusiya artıq iki dəfə bu ssenaridən istifadə edib. Düzdür, o zaman Azərbaycan məlumatlandırılmışdı. Amma orada əsas subyekt İran idi. Hesab edirəm ki, Rusiyanın planlarına imzalanan Konvensiyasının elə də maneçiliyi yoxdur. Bildiyiniz kimi, hazırda əsas müzakirə mövzusu edilibdir. Əgər Xəzər üzərindən Suriyaya Rusiyanın zərbə endirməyə ehtiyacı yaransa, o zaman hesab edirəm ki, Kreml bu məsələni daha çox İranla müzakirə edəcək. Düşünürəm ki, Rusiyanın bu məsələdə elə də bir ciddi problemi olmayacaq. Sadəcə, Xəzərin digər dövlətləri bu məsələ ilə bağlı məlumatlandırılacaqlar. Çünki Konvensiyada olan müddəadır ki, əgər hər hansı bir ölkə ümumi bir prosesdə hansısa bir təşəbbüsə əl atacaqsa, hər hansı bir tədbir həyata keçirəcəksə, o zaman gərək məlumat versin. Bu, həm siyasi etikadır, həm də hərbi sahədə olan normadır. Bu heç bir ölkə üçün başağrısı olmayacaq".

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, Rusiyanın Azərbaycan ərazisindən istifadə etməyə ehtiyacı yoxdur:** "Rusiyanın Xəzər dənizindəki ərazisi sularından, yaxud qarşılıqlı razılaşma əsasında İranın ərazi sularından Suriyaya zərbə endirməsi üçün Azərbaycanın hava məkanından istifadə etməsinə ehtiyac yoxdur. Bundan öncə də endirilən zərbələr İranın ərazi sularının yaxınlığından, İran və İraq üzərindən həyata keçirilib. Hazırda Rusiyanın Suriyanın Tartus bölgəsindəki hərbi bazasında 30-dan çox hərbi gəmisi var. Eyni zamanda Xmeymimdəki aviabaza da Rusiyanın nəzarətindədir. Nəzəri baxımdan Rusiyanın Xəzərdən Suriyaya zərbə endirməsinə ehtiyac yoxdur. Əgər endirilirsə, o zaman bu, sadəcə, siyasi aksiya və güc nümayişi anlamına gələ bilər. Xəzərdən, Rusiyanın daha öncə istifadə etdiyi ərazidən Suriyaya qədər hava məsafəsi təxminən 1500 km-dir. Ola bilsin ki, Rusiya yenidən uzaq mənzilli raketlərini sınaqdan keçirmək və həm də nümayiş etdirmək istəsin. Amma Rusiyanın Suriyadakı hərbi bazaları imkan verir ki, Rusiya istənilən hərbi əməliyyatı daha ucuz və daha dəqiq həyata keçirsin. Yox, əgər Xəzər yenidən Suriyaya zərbə endirmək üçün platsdarm kimi seçilərsə, bu artıq növbəti dəfə hərbi potensialın nümayişi kimi dəyərləndirilə bilər. Xəzərin hüquqi statusu haqqında Konvensiyanın 3-cü müddəasının 2-ci bəndində qeyd olunur ki, tərəflər "Xəzər dənizindən dinc məqsədlə istifadə edəcəkləri" barədə öhdəlik götürürlər. Amma Rusiya bu bəndi də istədiyi kimi yoza bilər. Məsələn, deyə bilər ki, Konvensiyanın bu bəndində "istisnasız olaraq" söz birləşməsi yer almayıb. Deməli, istisnalar ola bilər. Konvensiyada Xəzər dənizində 3- cü ölkələrin




(yəni qeyri-Xəzəryanı dövlətlərin ) silahlı qüvvələrinin iştirak etməsinin yolverilməzliyi barədə müddəanın Rusiyanın Xəzər dənizindən Suriyaya zərbə endirməsinə heç bir aidiyyəti yoxdur. Rusiya sahilyanı dövlətlərdən biridir və ən yaxşı halda atacağı addımları digər sahilyanı dövlətlərlə razılaşdıra bilər. Daha öncə də qeyd etdiyim kimi, Rusiyanın Xəzərdən Suriyaya zərbə endirməsi üçün Azərbaycanın ərazi sularından və hava məkanından istifadə etməsinə ehtiyac yoxdur. Hesab edirəm ki, Rusiya əgər Xəzər dənizindən Suriyaya zərbə endirmək istəyərsə, daha əvvəlki trayektoriyadan istifadə edəcək. Çünki bu, həm məsafə baxımından əlverişlidir, həm də daha öncə sınanmış trayektoriyadır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Sergey Skripalı zəhərləyənləri bir rus diplomatı satıbmış

**Böyük Britaniyada mühacir həyatı yaşayan keçmiş rus kəşfiyyatçısı Sergey Skripalı və onun qızını zəhərləyən Rusiya Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin (QRU olaraq daha çox tanınır) agentlərini Britaniya kəşfiyyatı tərəfindən ələ alınan rus diplomatı satıb.**



Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə "Daily express" qəzeti məlumat yayıb.

Saytın kəşfiyyat orqanına istinadən verdiyi xəbərə görə, həmin diplomatın kod adı "Apollon" olub. Bu diplomat Solsberidəki hadisədən bir neçə həftə sonra britaniyalılar tərəfindən Romada ələ alınıb.

Həmin diplomatın əslində Rusiyanın Roma səfirliyində çalışmasına rəğmən əsl işinin NATO haqqında məxfi informasiyaların toplanmasından ibarət olduğu söylənilir.

Qeyd olunur ki, Rusiya diplomatı Böyük Birtaniyanın xarici kəşfiyyat xidməti funksiyasını həyata keçirən Mİ-6-ya Moskvanın casus şəbəkəsi haqqında ətraflı məlumatlar ötürüb.

Materialda Solsberidəki əsas şübhəlilərin fotolarının da diplomat tərəfindən tanındığı və onların həqiqi adlarını verdiyi bildirilir. Qəzet son hadisəni Böyük Britaniya kəşfiyyatının son illərdəki ən böyük uğuru hesab edir. Xatırladaq ki, Böyük Britaniya Sergey Skripalı zəhərləyənlərin Rusiya hərbi kəşfiyyatının zabitləri Aleksandr Petrov və Ruslan Bəşirov olduğunu açıqlamışdı.

Moskva hələ də cinayətdə əli olmadığında israr etməkdədir.

# Ağ Evdən daha bir gözlənilməz qərar: FAT-ın ofisi bağlanır

**ABŞ Dövlət Departamentinin bəyanatında bildirilir ki, prezident Trampın administrasiyası Fələstin Azadlıq Təşkilatının (FAT) Vaşinqtondakı ofisinin bağlanması barədə qərar qəbul edib.**




AzərTAc xəbər verir ki, ABŞ xarici siyasət idarəsinin rəsmi bəyanatında deyilir: "Administrasiya ciddi təhlil aparandan sonra bu nəticəyə gəlib ki, Fələstin Azadlıq Təşkilatının Vaşinqtondakı Baş Nümayəndəliyi bağlanmalıdır". Bəyanatda həmçinin qeyd edilir ki, Birləşmiş Ştatlar 2017-ci ildə "İsraillilərlə fələstinlilər arasında möhkəm və geniş əhatəli sülhə nail olmaq üçün" FAT-ın müvafiq əməliyyatlar aparmasına icazə verib və bu ofisi bağlamayıb, lakin FAT "İsraillə birbaşa və konstruktiv danışıqlar aparmağa" yönəlmiş addımlar atmayıb.

Bəyanatda daha sonra deyilir ki, əksinə, FAT rəhbərliyi münaqişənin dinc yolla nizamlanmasına dair ABŞ-ın planını (hələ bu planın üzünü görmədiyi halda) pisləyib və ABŞ hökumətinin sülhə nail olmaq səylərində onunla əməkdaşlıqdan imtina edib. Beləliklə, Administrasiya Konqresin narahatlığını nəzərə alaraq, qərara gəlib ki, FAT-ın Vaşinqtondakı ofisi bu mərhələdə bağlanacaq. İdarədə həmçinin "İsrailə münasibətdə təhqiqat aparılmasında fələstinlilərin Beynəlxalq Cinayət Məhkəməsinə təzyiq göstərmək cəhdlərinə" görə narahatlıq ifadə olunub.

**Bəyanatın sonunda deyilir:** "Birləşmiş Ştatlar əvvəlki kimi hesab edir ki, münaqişənin həllinə yaxınlaşmağın yeganə üsulu iki tərəf arasında birbaşa danışıqlardır və rəsmi Vaşinqton möhkəm və geniş əhatəli sülhə nail olmaq üçün səylərindən geri çəkilməyəcək".

# Rusiya 300 minlik ordusunu, 36 min tankını ortaya çıxardı

## Üzeyir Cəfərov: "Rusiyaya basqıların səngiməsinə nail olmaq üçün atılan addımdır, lakin bununla sanksiyaların qarşısının alınacağı inandırıcı deyil"

**Sentyabrın 11-də Rusiyada müstəqillik tarixinin ən böyük hərbi təlimləri başlayıb. Təlimlərə 300 min hərbi qulluqçu və 36 minə qədər hərbi texnika cəlb olunub. "Vostok-2018" adlanan təlimlər Uzaq Şərqdə start götürüb, hücum və müdafiə taktikaları gözdən keçirilir. Hərbi təlimlər ölkənin digər bölgələrində keçiriləcək. Uzaq Şərqdə keçirilən hərbi təlimlərə Çin ordusunun 3,5 min hərbi qulluqçusu da qatılacaq. Hərbi təlimlərin bir həftə keçiriləcəyi elan edilib.**



Qeyd edək ki, Rusiya ordusunun müxtəlif hərbi birləşmələri, qoşun növləri son zamanlar az qala hər ay hərbi təlimlər keçirir. Necə deyərlər, rus əsgərləri kazarmaya girmirlər, bütün gün təlimlərdədirlər. Rusiya hərbi, siyasi rəhbərliyinin bununla da kifayətlənməyərək çox böyük miqyaslı hərbi təlimlər qərarına gəlməsi maraq doğurur.

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a şərhində bildirdi ki, başda ABŞ olmaqla, böyük güclərin tətbiq elədiyi iqtisadi sanksiyalar Rusiyanı məcbur edir ki, özünün gücünü onlara nümayiş etdirsin. Ona görə də Rusiyanın müstəqillik tarixində miqyasına görə ən böyük hərbi təlimini keçirirlər. 300 min şəxsi heyətin iştirakı ilə hərbi təlim o deməkdir ki, əslində Rusiya Federasiyasının bütün ordusu təlimlərə cəlb edilib.

**Hərbi ekspert hesab edir ki, hərbi, siyasi baxımdan bu cür təlimin müəyyən effekti qısa müddət üçün ola bilər, amma iqtisadi baxımdan əlavə xərcdir:** "Əslində bu cür böyük miqyaslı hərbi təlimin keçirilməsi Rusiya iqtisadiyyatı üçün ağır yükdür. Təkcə hərbi təlimə 36 min tankın, 80 gəminin, on minlərlə digər ağır texnikanın sentyabrın 11-dən 17-dək təlimlərdə sərf edəcəyi yanacaq, sürtkü materiallarının dəyəri çox böyük məbləğ edir və bu, büdcə üçün ağır yükdür. Ancaq Rusiya rəhbərliyi bunu göz önünə alıb. Hərbi təlimlərə Rusiyanın müdafiə naziri Sergey Şoyqu rəhbərlik edir. Ali baş komandan Vladimir Putin təlimlərin açılışında iştirak edib. Bu faktlar da hərbi təlimlərin Rusiya rəhbərliyi üçün nə dərəcədə əhəmiyyət daşıdığını göstərir".

**Ü.Cəfərovun fikrincə, 300 min şəxsi heyəti, on minlərlə hərbi texnikanı hərbi təlimlərə cəlb etməklə Rusiya öz qüdrətini nümayiş etdirməyə çalışsa da, bu, ona qarşı sanksiyalar tətbiq edən gücləri mövqelərindən çəkindirə bilməyəcək:** "Bu təlimlər Rusiyanın narahatlığından irəli gəlir. Onsuz da Rusiya silahlı qüvvələrində vaxtaşırı lazımi təlimlər keçilirdi. İndiki vaxtda 300 minlik şəxsi heyəti təlimlərə cəlb etmək bəzi güclərə hərbi, siyasi mesajdır. Rusiyaya basqıların səngiməsinə nail olmaq üçün atılan addımdır. Lakin bununla sanksiyaların qarşısının alınması inandırıcı deyil. Hətta mümkündür ki, əks effekt verərək sanksiyaların daha da kəskinləşdirilməsinə səbəb olsun. Sentyabrın 17-dək davam edəcək hərbi təlimlər ciddi bir görüntü yarada və əzələ nümayiş etdirə biləcək. Zatən Rusiyanın hərbi qüdrəti dünya güclərinə bəllidir. Buna baxmayaraq, rəqibləri ona sanksiyalar tətbiq etməkdən çəkinmir. Son illər Rusiyaya güc faktorundan çəkinmək məsləhət görülürdü. Buna baxmayaraq, 300 minlik təlim keçirildi. Ona görə də, hər halda, bir sıra dövlətlər bunu xoş qarşılamayacaq. Yəqin bəzi dövlətlərin reaksiyaları olacaq".

Hərbi ekspert onu da dedi ki, müdafiə naziri Sergey Şoyqu prezident Putinin dostudur və onun adı hətta siyasi varis, Putindən sonra prezident olacaq şəxs kimi də tez-tez Rusiya mediasında hallanır. Şoyqu bütün gücü ilə çalışır ki, bu təlimlər çox yüksək səviyyədə keçsin və onun siyasi hakimiyyət yoluna işıq tutacaq faktorlardan birinə çevrilsin.

❑ **Etìbar SEYİDAĞA, "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

# Məhbus rejissorun 121 günlük aclıq aksiyası və bizim aclıq edənlər...

**Ukraynalı rejissor Oleq Sentsov 121 gündür ki, Lapıtnanqidə yerləşən ağır rejimli "Ağ ayı" cəzaçəkmə müəssisəsində aclıq aksiyasını davam etdirir. "Yeni Müsavat" Rusiya mətbuatına istinadən xəbər verir ki, bacısı Natalya Kaplana məktub yazan rejissor burada öz durumundan bəhs edib.**




Kaplan bu məktubdan bəzi hissələri facebook hesabında yayımlayıb. **Sitat:** "Tezliklə azadlığa çıxacağım və birlikdə Kiyevdə xoşbəxt yaşayacağımıza inanmıram. Eləcə də digər başqa şeylərə. Amma bu, o demək deyil ki, mən təslim olmuşam. Mən bütün hallarda təslim olmamışam. Sadəcə, mən bu hekayənin xoşbəxt sonluğuna inanmıram. Mənim vəziyyətim təxminən belədir: stabil-bərbad, bundan öncəki problemlərə indi də hipoksiya əlavə edilib, orqanlarda oksigen çatışmazlığı, əsasən də ürək və beyində. Başımda duman var, daim başım fırlanır. Bədənim, başım isə hissizdir".

Oleq yazıb ki, orqanizmində baş qaldıran bütün problemlərə baxmayaraq, o, ayaq üstə qalmağa çalışır. Kaplan isə bildirib ki, qardaşı indidən öz vəsiyyətini yazıb və bu, onları çox qorxudur...

Oleq Sentsov ukraynalı rejissor və aktivistdir. 2014-cü ildə terrorizmdə təqsirləndirilərək Krımda həbs edilib. 2015-ci ilin avqustunda 20 il müddətinə azadlıqdan məhrum edilib. Həbs müddətini ciddi rejimli cəzaçəkmə müəssisəsində keçirməsi ilə bağlı qərar verilib. Sentsov ittihamı rədd edir və həbsini siyasi sifariş hesab edir. Beynəlxalq insan haqları təşkilatları Sençovun azadlığının tələb edir.

Sentsov "Avtomaydan" aktivistlərindən biri olub. Krım böhranı vaxtı "Bir Ukrayna" hərəkatını dəstəkləyib və aksiya iştirakçılarına yemək, təcili tibbi yardım ləvazimatları çatdırıb.

Rejissor və aktivist Sençov 2014-cü ilin mayında Rusiya xüsusi xidmət orqanları tərəfindən terror törətmək ittihamı ilə saxlanılıb. Onunla birgə başqa 3 nəfər də saxlanılıb. Bir müddət sonra o, Moskvadakı Lefortova istintaq təcridxanasına gətirilib. Hüquq-mühafizə orqanlarının ilkin ehtimalına görə həbs edilənlər Simferopolda terror aktları törətmək istəyiblər. Onlar 8-9 may tarixlərində kustar üsulla hazırlanan partlayıcılarla "Həmişə yanar alov" abidəsi və Leninin xatirə abidəsini partlatmaqda, 14-18 aprel tarixlərində hakim partiyanın və "Rus Krım cəmiyyəti"nin ofisini yandırmaqda günahlandırılıb.

O.Sençov 14 may 2018-ci ildə həbs həyatını keçirdiyi "Ağ ayı" həbsxanasında aclıq aksiyasına başlayıb. O, bu aksiyanı öz azadlığı uğrunda yox, Rusiyada həbsdə yatan 64 Ukrayna vətəndaşının azadlığa çıxması tələbi ilə keçirir. Məlumatı iki gün sonra onun vəkili yayır. Aclıq aksiyasından sonra onu xüsusi kameraya keçiriblər və o, həkim nəzarəti altında aksiyasını davam etdirir.

### Aclıq aksiyası zamanı insanın orqanizmində nələr yaşanır?

121 gün... Bütün hallarda müddət olduqca böyükdür və bunun türmə divarları arasında baş verməsi ikiqat ağır haldır. Güman ki, rejissor bu aksiyanı müəyyən qısa fasilələrlə və ya məhdud qidalanma ilə keçirib. Ümumiyyətlə, insan orqanizmi bu qədər müddətə aclığa davamlıdırmı?

Aclığa başlayanda öncə orqanizm qlükoza anbarından istifadə edir və bu, 24 saat ərzində tükənir. Ardınca yağ anbarı enerji qaynağı olaraq istifadə olunur. Son olaraq proteinlər yardıma gəlir. Adətən proteinlər enerji qaynağı olaraq istifadə edilmir, amma uzun müddət davam edən aclıqdan sonra buna da ehtiyac duyulur. 72 saat sonra enerji üçün sadəcə yağ və proteinlərdən istifadə edilir. Lazımi miqdarda su qəbul edilməyəndə insan bir neçə gün ərzində həyatını itirir, lazımi miqdarda maye alan şəxslər isə aclığı davam etdirə bilirlər.

Aclıq müddəti ilk 24 saat, 24-72 saat və sonrası olaraq bir neçə dönəmə ayrılır. İlk həftə adətən insan çəkisinin 5-10 faizini itirir, sonrakı dönəmlərdə bu rəqəm 35-50 faizə qədər çatır. İnsanın daha öncədən ürəklə bağlı problemi olmasa da, uzun müddət davam edən aclıq nəticəsində xəstələr müxtəlif səbəblərlə dünyasını dəyişə də bilir.

Azərbaycanın ictimai tarixində isə istər media nümayəndələrinin, istərsə siyasilərin keçirdiyi aksiyalar yaddaqalan olub. Media kapitanları 1998-ci ilin sonunda geniş bir spektri əhatə edən aksiya ilə mətbuat tarixində iz qoyub. 2006-cı ildə AXCP və "Azadlıq" qəzetinin yerləşdiyi binadan çıxarılmasına etiraz olaraq keçirilən aksiya isə "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin koma vəziyyətinə düşməsi nəticəsində yekunlaşıb. 2008-ci ildə də mediaya təzyiqlərə etiraz ələməti olaraq, jurnalist və redaktorlar aclıq aksiyası keçiriblər. Sadaladıqlarımız ümumi aksiyaların fonunda, sadəcə, bir neçəsidir. Siyahı isə yetərincə uzundur.

### Onlar da aclıq ediblər və sağ qalıblar...

2008-ci ildə Azərbaycanda aclıq aksiyası keçirən jurnalistlərə millət vəkili Pənah Hüseyn, Xalq Cəbhəsi Partiyasının sədr müavini Fuad Mustafayev və Liberal partiyası icraiyyə komitəsinin sədri Əvəz Temirxan da qoşulub.

2014-cü ildə NİDA Gənclər Hərəkatının üzvlərinə qarşı prokurorun 64 il azadlıqdan məhrum etmə cəzası tələb etməsi həm gəncləri həm də onlardan 3-nün valideynlərinin aclıq aksiyasına başlamasına səbəb olub.

2010-cu ildə qaydasız döyüş üzrə Rusiya çempionu, Avropa mükafatçısı, Qarabağ müharibəsi veteranı A.Məmmədov Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə hakim Əlövsət Əliyevin sədrliyi ilə keçirilən prosesdə 10 il həbs cəzası almasına etiraz olaraq 8 kamera yoldaşı ilə birgə aclıq aksiyası keçirib.

2014-cü ildə Gürcüstanın Kutaisi şəhərinin yaxınlığında yerləşən Gequt türməsində minə yaxın dustaq aclıq elan edib. Aclıq aksiyası türmə administrasiyası tərəfindən sərt davranışa qarşı keçirilib.

Həmin vaxt Gürcüstanın cəzaların icrası naziri Sozar Subari iddia edib ki, aksiyanı kriminal avtoritetlər planlaşdırıb.

Səudiyyə şahzadəsi də 3 oğlunun Ərrəyadın "Rits Karlton" hotelində həbsinin davam etməsinə qarşı etiraz ələməti olaraq aclıq elan edib. Səudiyyə qaynaqları bildiriblər ki, 86 yaşlı Təllal 2017-ci ilin 10 noyabrında oğlu Vəlid saxlanıldıqdan az sonra aclıq aksiyasına başladı. Səudiyyə qaynaqları bildiriblər ki, Ərrəyadın Məlik Feysəl xəstəxanasının həkimləri şahzadəni boru vasitəsilə qidalandırmağa cəhd göstəriblər.

Səudiyyə kralı noyabr ayında oğlu Məhəmmədin başçılığı ilə korrupsiya ilə mübarizə komitəsinin yaradılmasına fərman verib və həmin komitənin fəaliyyəti nəticəsində indiyədək onlarla şahzadə, keçmiş və indiki rəsmilər həbs ediliblər.

Siyasətçilərə görə Səudiyyə rejiminin şahzadələri geniş miqyasda həbs etməsi vəliəhd Məhəmməd bin Salmanı gücləndirmək məqsədi güdüb.





## Pənah Hüseyn: "Mən aclıq aksiyası tərəfdarı deyiləm..."
## Məmməd Zeynalov: "Aclıq aksiyası keçirən məhbus ölsə, türmə rəisi məsuliyyət daşımır"

### Pənah Hüseyn: "4 dəfə aclıq aksiyası keçirsəm də, bunun tərəfdarı deyiləm..."

**Eks millət vəkili Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında türmədə keçirdiyi aclıq aksiyasını yada salaraq bəzi nüanslara toxundu. Dedi ki, məhbusun aclıq etmək hüququ beynəlxalq hüquq normalarında yer alıb. Onun sözlərinə görə, məhbusların haqqında BMT-nin qəbul etdiyi presedentlər var. Eyni zamanda cəzaçəkmə müəssisəsi rəhbərliyinin də yerli qanunvericiliyə görə, hüququ var ki, ölüm təhlükəsi yaranarsa, bu halda məhbusun zorla yedizdirilməsi tətbiq oluna bilər. Bunun üçün həkim təyin edilməli və o, bu prosesi nəzarətə götürməlidir:** "Bunun qanun-qaydası belədir ki, təcridxana rəhbərliyinə ərizə ilə müraciət olunur, rəsmən bildirilir. Bir qayda olaraq, bu, nəzarətə götürülür. Bəzən onlar digər dustaqlardan ayrılır, həkim nəzarətinə götürülürlər. Təcridxana rəhbərliyi bu aclığın tez dayandırılmasında maraqlı olur. Məsələn, biz aksiya keçirdiyimiz zaman bir neçə dəfə təcridxana işçiləri tərəfindən kamerada axtarış aparılıb, şəkər və bu kimi aclığa dözməyə imkan verən maddə, preparatların olub-olmaması xüsusilə yoxlanılıb. Yanımıza gətirilən sovqatlar verilməyib. Aclıq edən məhbuslar etməyənlərdən təcrid olunub. Aclıq rəsmiləşdikdən sonra təcridxana bunu qeydə alıbsa, Qırmızı Xaç Təşkilatının nümayəndələri aclıq edən məhbuslara baş çəkirdi".

**P.Hüseyn dedi ki, ümumiyyətlə, aclığın müxtəlif formaları var. Müsahibimizin sözlərinə görə, bu, məhbus tərəfindən yazılmış ərizədə göstərilir:** "Məsələn, bizim aksiyamız qidadan imtina idi. Sudan imtina deyildi. Bəziləri su ilə bərabər suda həll olunmuş bəzi maddələri qəbul edirlər. Bunun forması ərizədə göstərilməli və buna təcridxana rəhbərliyi tərəfindən nəzarət olunmalıdır".

**Müsahibimiz bildirdi ki, ümumiyyətlə, aclıq etirazın ən ifrat halıdır. Onun fikrincə, bu, intihara qədər gedib çıxmalı deyil:** "Mən 4 dəfə aclıq aksiyası keçirmiş biri olaraq o qədər də bu aksiyaların tərəfdarı deyiləm. Doğrudur, ən effektiv aksiyalardan biridir. İnformasiya məkanında diqqət cəlb edir. Amma bizim mədəniyyətimiz, əxlaqımız bunun intihar həddinə qədər aparılmasını qadağan edir. Çalışmaq lazımdır ki, insanlar bu həddə çatmasın".

### Məmməd Zeynalov: "Dustağa zorla, xüsusi cihazla yemək verirlər"

**Penitensiar Xidmətin sabiq rəisi Məmməd Zeynalov isə "Yeni Müsavat" a açıqlamasında bildirdi ki, ümumiyyətlə, məhbusun quru aclığına imkan verilmir:** "Zorla da olsa, xüsusi cihazla məhbusun ağzını aralayırlar, yeməyi zorla tökürlər. Xüsusi dərmanlar var ki, verirlər, məhbus ölməsin. Amma bununla paralel, məhbusun narazılığı ilə də maraqlanırlar. Bu günə qədər acından ölən məhbus olmayıb bizim təcrübəmizdə. Bəzi məhbuslar var ki, ağzını tikir. Bununla da aksiyadakı məqsədinin daha real görünməsini istəyir. Ona da başqa vasitələrlə vitaminlər verilir və ölməsinin qarşısı alınır".

**M.Zeynalov bildirdi ki, aclıq səbəbindən dustaq ölərsə, bu halda məsuliyyət payı heç kimin üzərinə düşmür:** "Adətən dövləti cinayətlər etmiş şəxslər özlərini öldürürlər. Bu halda cavabdeh heç kim hesab edilmir. Və ya şəxs özünü asır. Bu halda da kimsə məsuliyyət daşımır. Aclıq məsələsində cavabdeh həkimlərdir. Türmə rəisi kimsə məcburi yemək yedizdirməli deyil".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Ərəb bloggerin Bakıdan qalmaqallı reportajına reaksiyalar

## 8 min ərəbin ölkəmizdə SPİD-ə yoluxması məlumatı nə qədər doğru ola bilər?



**Ərəb blogger Ali Əthabın Azərbaycana gələn ərəb turistlərin həyat tərzi haqqında hazırladığı reportaj böyük səs-küyə səbəb olub. Belə ki, bir çox İraq telekanallarında yayımlanan və səs-küy yaradan reportajda blogger qeyd edib ki, Bakıya gəlişinin səbəbi burada ərəb turistlərin ölüm səbəbini araşdırmaqdır. Blogger Azərbaycanda ərəblərin gecə həyatı yaşadığını və yüngül həyat tərzi sürən qadınlarla münasibətdə olduqlarını müşahidə edib.**

Ali Əthab reportajında qeyd edib ki, ərəblər Bakıda gecə klublarında tanış olduqları qadınlarla cinsi əlaqədən sonra QİÇS xəstəliyinə tutulur. O, digər qalmaqallı iddia ilə də çıxış edərək bildirib ki, guya Bakıda 8 min ərəb sözügedən xəstəliyə yoluxub.

Beləliklə, qalmaqallı reportaj bir çox suallar ortaya çıxarıb. 8 min ərəbin SPİD xəstəliyinə tutulması ehtimalı nə qədər əsaslı ola bilər? Rəsmi orqanlar bloggerin hazırladığı bu reportajla bağlı hər hansı araşdırma aparmağı düşünürmü?

İlk öncə qeyd edək ki, son iki ildə ölkəmizə gələn bir neçə ərəb bu və ya digər səbəbdən dünyasını dəyişib. Azərbaycan mətbuatında da bu məsələ bir neçə dəfə müzakirə edilib. Ekspertlər qeyd edir ki, ərəblər spirtli içki mədəniyyəti olmadığı üçün bəzən “doza”nı aşaraq həyatlarını təhlükəyə qoyurlar. Bundan başqa, fərqli qidalanma, ağır çəki, bununla paralel çox yeyib, az hərəkət etmənin də fəsadları özünü göstərir. Həmçinin cinsi gücü artıran dərmanların spirtli içkilərlə birgə qəbulu da bir çox hallarda faciəvi nəticəyə gətirib çıxara bilir.

Ümumiyyətlə, ərəb turistlərin əxlaqsız, xoşagəlməz, qıcıq yaradan davranışları ilə bağlı da vaxtaşırı məlumatlar yayılır. Turizm agentliyində çalışan şəxslər də mətbuata açıqlamasında bildirirlər ki, ərəb turistləri bir qayda olaraq Bakıda və əyalətdə olan intim xidmət göstərən məkanların adlarını istəyirlər. Qeyd olunur ki, ərəblərin ilk tələbi intim xidmət göstərən yerlərə getmək olur. Onlar əsasən rus və ukraynalı xanımlarla tanış olmaq istəyirlər. Hətta ailəsi ilə birgə gələn ərəblər də bu cür istəkdə olurlar. Təbii ki, bu vəziyyətdə SPİD və bu kimi yoluxucu xəstəliklərin yayılması ehtimalı qaçılmaz olur.

**Tez bir zamanda 8 min ərəbdə SPİD xəstəliyinin aşkar edilməsi məsələsinə gəldikdə isə tibb professoru Adil Qeybulla məsələyə bu cür aydınlıq gətirdi:** “SPİD virusu bir sıra virus qrupuna aiddir. Bu virus bədənə oturur və qanda, orqanizmin müxtəlif yerlərində aşkar edilir, o cümlədən ağız yolunda, uşaqlıq yolunda və sairə. Virusa yoluxmanın müxtəlif formaları var. Virusa yoluxduqdan təxminən 1 ay sonra qanda çoxalır. Lakin bir ayda bu məsələ aşkarlanmır. Çünki bunun üçün azı 3 aya qədər vaxt lazım gəlir. Yoxlanma zamanı virusun çıxmaması hələ ona yoluxmadığını göstərmir”.

**Həkim qeyd etdi ki, qəsdən başqasını bu virusa yoluxdurmaq cinayət hesab olunur:** “Virusun yayılmaması üçün müxtəlif müalicə üsulları aparılsa da, xəstəliyi tam olaraq aradan qaldırmaq mümkün deyil. Bu səbəbdən qəsdən başqasını bu virusa yoluxdurmaq cinayət hesab olunur. Bunun üçün də diqqətli olmaq lazımdır”.

**Adil Qeybulla son vaxtlar ölkəmizdə bu xəstəliyin geniş yayılmasına da şərh bildirib:** “Bu, Azərbaycan əhalisinin miqrasiyası ilə bağlıdır. Bilirik ki, milyonlarla insan Rusiyaya və digər ölkələrə axışır. Beləliklə, ölkəyə giriş-çıxış artdıqda virusun yayılması da genişlənir.

Virus əsasən qanla yoluxur. O cümlədən anada virus olarsa onun dünyaya gətirdiyi körpəsində də virusun aşkarlanması qaçılmaz olur. Xəstəliyə yoluxmamaq üçün bir çox məsələlərə, o cümlədən şəxsi gigiyenaya diqqət etmək lazımdır".

Beləliklə, SPİD xəstəliyinə yoluxduqdan sonra hətta uzun illər onun əlaməti müşahidə edilməyə, insan özünü yaxşı hiss edə bilər. Hətta bəzi hallarda bu virusa yoluxmuş şəxsin 8 yaxud 10 il arası bu xəstəliyə tutulduğu aşkarlanmaya bilir. Yoluxma baş verdikdən ən azı 3 ay sonra aparılan ELİSA testləri ən doğru nəticəni göstərir. Ərəb turistlərin hələ öz ölkələrində bu xəstəliyə yoluxub, Azərbaycana gəlməsi ehtimalına gəldikdə isə Dövlət Gömrük Komitəsi bundan əvvəl bu mövzu ilə bağlı “Yeni Müsavat”ın sorğusuna cavab olaraq bildirmişdi ki, bütün sərhəd-gömrük keçid məntəqələrində quraşdırılan xüsusi termovizorlar vasitəsilə ölkənin gömrük ərazisinə daxil olan şəxslərin bədən hərarəti ölçülür. Bədən temperaturu normadan artıq olan şəxslər dərhal müəyyən edilir və bu istiqamətdə zəruri tədbirlər həyata keçirilir.

Qeyd edək ki, artıq 2-3 ildir ki, ərəb ölkələrindən Azərbaycana kütləvi şəkildə turistlər gəlir. Son statistika da onu göstərir ki, bu il də Azərbaycana əsas turist axını ərəb ölkələrindən olub. Ərəblər əsasən Küveyt, Oman, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliklərindən axışır. Ötən ilin yanvar-iyun ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 5,1 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 3,5 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,6 dəfə, Qətər vətəndaşlarının sayı 2,1 dəfə, Oman vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 44,3 faiz, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 8,8 faiz artıb. Körfəz ölkələrindən gələnlərin ümumi sayı 4,9 faiz artaraq 276,6 min nəfər təşkil edib və ümumilikdə ölkəmizə gələnlərin demək olar ki, hər 5 nəfərindən 1-i Körfəz ölkələrindən olub.

Bəs ərəb turistlərin ölkəmizə axışdığı bir zamanda məlum reportaj Azərbaycan və onun imici üçün nə dərəcədə təhlükəlidir?

**Dövlət Turizm Agentliyinin mətbuat katibi Kənan Quluzadə sualımızı cavanlandıraraq vurğuladı ki, ərəb bloggerin reportajını ciddiyə almaq olmaz:** “Bloggerlər müxtəlif ölkələrdən müxtəlif reportajlar hazırlaya, informasiyalar yaya bilərlər. Bloggerlər göydən düşmə rəqəmlər də göstərə bilər və sairə. Biz bu cür məsələləri şərh etmirik”.

Bununla belə, reportajın bir çox İraq televiziyalarında yayımlandığını nəzərə alsaq, onun məsələyə təsirsiz ötüşməyəcəyini də ehtimal etmək olar.

**Sosioloq Əhməd Qəşəmoğlu isə qeyd etdi ki, bu məsələdə bir neçə məqama diqqət etmək lazımdır:**

“İlk növbədə onu qeyd etmək lazımdır ki, ölkəmizdə hələ də turizm sektorunda vəziyyət kifayətedici deyil, burada bir sıra boşluqlar var və bununla bağlı işlər görülməlidir.

Əgər xaricilərin əlində belə bir faktlar var və hallanırsa, dərhal onları tənqid etməzdən əvvəl düşünməliyik ki, nə edək ki, ölkəmiz üçün bu cür imic qazanmayaq. Yəni özümüzdə də nöqsanlar axtarmalıyıq.

Bu da heç də gizlin deyil ki, ərəblərlə bizim aramızdakı münasibətləri korlamaq istəyən qüvvələr də var. Ola bilsin ki, ərəblər Bakıda, ölkəmizin digər bölgələrində xoşagəlməz davranışlar, natəmizlik nümayiş etdirirlər. Lakin bu cür məlumat və reportajlar da ərəb ölkələrində Azərbaycan haqqında neqativ hisslər yarada bilər.

Bütün bunlarla bağlı turizm agentlikləri işlər aparmalıdır. Ölkəyə gələn ərəblərlə söhbət aparılmalı, bizim adət-ənənəmiz, milli dəyərlərimiz barədə məlumatlar verilməlidir ki, onlar öz davranışları ilə ikrah hissi yaratmasınlar. Eyni zamanda gecə klubları və bu cür iaşə obyektləri diqqətə götürülməli, danışıqlar aparılmalıdır ki, təkcə qazanc barədə düşünülməsin. Hər bir turist Azərbaycana gələrkən onda ölkəmiz haqqında imic, fikir formalaşır. Elə etmək lazımdır ki, bu imicimiz ləkələnməsin".

❑ **Xalìdə GƏRAY,**
**“Yenì Müsavat”**

# “Oktyabrda qərar qüvvədən düşsə belə...”

## Natiq Cəfərli: “Kartofun qiymətindəki artım Yeni ilə qədər yüksələn xətlə davam edəcək”

**Nazirlər Kabinetinin kartofun gömrük rüsumunun artırılması ilə bağlı qərarından sonra artıq bazarda qiymət artımı müşahidə edilməkdədir. Belə ki, kartofun kiloqramı 40-50 qəpikdən başlayan qiymətlərlə təklif olunurdusa, indi 60-70 qəpikdən başlayan qiymətlərlə satışa çıxarılır.**



Xatırladaq ki, ölkə əhalisinin kartofa illik tələbatı isə 1 milyon 200 ton təşkil edir. Onu da nəzərə alaq ki, istehsal edilən kartofun hamısı yararlı olmur.

Paralel olaraq, son iki ildə Azərbaycandan xaricə kartof ixracı da artıb. Belə ki, 2016-cı ildə ölkədən 38, 2 min ton, 2017-ci ildə 57, 6 min tona yaxın kartof ixrac edilib. Bu ixracdan 2016-cı ildə 15, 8 milyon dollar, 2017-ci ildə isə 25, 8 milyon dollar vəsait əldə edilib.

Rəqəmlərdən görünən odur ki, daxili istehsal hətta tamamilə istifadəyə yararlı olsa və bütünlüklə bazara çıxarılsa belə, daxili tələbatı tam ödəmir. Yeni gömrük rüsumlarının tətbiqindən sonra isə idxal sürətlə azalır. Çünki yerli kartofdan daha baha başa gələn idxal məhsulu bazarda rəqabəti uduzur. Məhsul qıtlığı isə bahalaşmanın başlıca səbəbidir.

**İqtisadçı ekspert Natiq Cəfərli də “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, yerli istehsal daxili tələbatı ödəmək gücündə olmadığından bahalaşma qaçılmazdır:** “Hökumət bu qərarı verməzdən öncə, statistik məlumatlardan istifadə edərək müqayisə aparmalı idi ki, ölkədəki daxili istehsal istehlakın həcmi ilə hansı münasibətdədir. Yəni yerli məhsullar hesabına tələbatı ödəmək mümkündürmü? Və xaricdən gətirilən məhsulların gömrük rüsumunu artırmaqla onların idxalını azaldarkən fermerlərə necə dəstək oluruq? Bu suallar ətrafında hesablamalar aparmadan rüsumun artırılması təbii olaraq bahalaşmaya yol açır. Necə ki, biz bunu ilyarım öncə idxal olunan toyuq əti və yumurtanın gömrük rüsumunun artırılması zamanı yaşadıq. O zaman da elan edilmişdi ki, bu addım yerli istehsalçılara dəstək üçün atılır. Ancaq nəticə etibarilə nə yerli istehsal artdı, nə də onun qiyməti aşağı düşdü. Əksinə, xaricdən gətirilən məhsulların bahalaşmasından istifadə edərək, yerli istehsalçılar da qiymətləri artırmaqla məşğul oldular. Çünki daxili istehsal tələbatı tam ödəmirdi. İndi həmin hadisə kartofla bağlı təkrarlanır”.

**İqtisadçının fikrincə, idxal olunan məhsulun həcmi yerli istehlakçılara və istehlakın həcminə müsbət təsir göstərirdi, eləcə də qiymətləri tənzimləməyə kömək edirdi:** “Bu il kartof istehsalının həcmi öncəki illə müqayisədə artmayıb, demək olar ki, eynidir. Buna rəğmən gömrük rüsumlarının artması qiymətləri də bərabərində artırır. Bu qərar oktyabrın sonuna kimi qüvvədə olacaq, lakin bu vaxtın uzadılmayacağına kimsə zəmanət vermir. Digər tərəfdən, oktyabrda qərar qüvvədən düşsə və idxalın həcmi artsa belə, mövsümlə əlaqədar yerli məhsulların azalması səbəbindən qiymətlərdə ucuzlaşma olmayacaq. Çünki bu zaman mövsümlə bağlı olaraq yerli məhsullar bazardan çəkilmiş olacaq. O baxımdan hesab edirəm ki, kartofun qiymətindəki artım Yeni ilə qədər yüksələn xətlə davam edəcək. Hətta növbəti il yazın sonuna qədər qiymətlər yüksək olaraq qalacaq. Çünki qarşıdakı iki ayda yerli məhsullar satılacaq və bazardan çəkiləcək, xaricdən gələn məhsulların bazarda üstünlük təşkil etməsi isə bu gün qalxan qiymətlərin enməsinə imkan verməyəcək”.

❑ **Nərgìz LİFTİYEVA,**
**“Yenì Müsavat”**

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018



## Ənvər Paşanın nəvəsi Bakıya gəlir

**"13 sentyabrda Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) və Avrasiya Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etməsinə həsr olunmuş tədbir keçiriləcək".**

Bu sözləri modern.az-a açıqlamasında ATXƏM-in koordinatoru və icra katibi İlqar İlkin deyib. O bildirib ki, bu tədbirə Mətbuat Şurası və QHT Forumu da dəstək verir.

"Tədbir Qafqaz İslam Ordusu ilə bağlıdır. Saat 6-da isə Rəşid Behbudov adına Mahnı Teatrında konsert olacaq. Tədbirə Ənvər Paşanın nəvəsi, Nuru Paşanın qardaşının nəvəsi Arzu Ənvər xanımı dəvət etmişik. Tanınmış müğənni, "Özbek, türkmən, uyğur, tatar, azer bir boydur" mahnısını ifa edən Hasan Sağındık təşkil olunan konsertdə ifa edəcək. ATXƏM hər il belə tədbirlər keçirir. Əvvəlki illərdə Nuru Paşanın ordusunda xidmət etmiş Hüseyn Əfəndinin oğlu İslam Özkösəli də iştirak edirdi, amma bu il sağlamlığına görə gələ bilmədi".

İlqar İlkin bildirib ki, İstanbul Türkiyə-Azərbaycan dərnəyinin üzvləri hazırda onların dəvəti ilə Gəncədədir.

"Həmin dərnək 16 nəfər heyətlə Gəncədən Bakıya Qafqaz İslam Ordusunun keçdiyi yolla gələcək. Daha sonra Quba soyqırımı məzarlığına gedəcəklər. Bu gün Gəncədədirlər, sabah Şəki, Göyçay, sonra Salyan, Bakı və Quba istiqamətində hərəkət edəcəklər. Bunu da biz hər il edirik".

## İçərişəhərdə Bakı xanının hamamı tapıldı



**İçərişəhər ərazisində vaxtilə Bakı xanlarından birinə məxsus olmuş hamam aşkarlanıb. Modern.az-ın əldə etdiyi məlumata görə, hamamın bu günə kimi aşkarlanmamasına səbəb kimi erməni hiyləsi göstərilir. Belə ki, vaxtilə həmin hamamın qapısını hörüb bağlayan ermənilər onun üzə çıxmasına əngəl olublar.**

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, bu barədə hələ ki ətraflı nəsə demək olmaz: "Arxeoloji işlər davam etdirildiyi üçün o barədə məlumat verilmir. Çünki yekun rəy hələ söylənilməyib. Düzdü, İçərişəhər ərazisində hamam aşkarlanıb. Bu, təsadüf deyil. Çünki arxeoloqlar bu barədə məlumata sahib olub. Ancaq bu barədə ətraflı nəsə deyə bilmərik. İşlər yekunlaşandan sonra mətbuata məlumat veriləcək".



# Məhərrəm ayı: qan tökməyək, qan verək...

## Məhərrəm ayının 10-da baş verənlər İslam tarixində dönüş nöqtəsi sayılır

**Sentyabrın 11-dən müsəlman aləmində Məhərrəm ayı başlayır. Bununla bağlı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazilər Şurası da fətva verib. Qeyd edək ki, bu ayın 10-cu günü - Aşura sentyabrın 20-nə təsadüf edəcək. Səfər ayı isə oktyabrın 11-də başlayacaq və noyabrın 8-də başa çatacaq.**

**Kərbəla hadisələri yalnız qanlı qırğın, müharibə deyil..**

Məhərrəm İslam dininə görə 4 "haram" ("Muhərrəm" haram edilmiş mənasındadır ) aydan biridir. İslam hökmlərində bu ayda savaşmaq, qan tökmək qadağan (haram) edilib. İslam mənbələrində Məhərrəm ayı haqda bir sıra məlumatlar var. Ancaq heç şübhəsiz, bu ayın əsas hadisəsi Aşura və ya Kərbəla hadisəsidir. Hicrətin 61-ci ili (Miladi təqvimlə 680-ci il) Məhərrəm ayında İraqın Kərbəla çölündə baş verən qanlı hadisələr bütövlükdə İslam təqvimində ən mühüm hadisələrdən biridir. Məhərrəm ayının 10-cu (ərəbcə "əşərə"- Aşura) günü İslam Peyğəmbəri həzrət Məhəmmədin (s.ə.s.) nəvəsi, İmam Əlinin (ə) və Həzrət Fatimənin oğlu İmam Hüseyn (ə) ailə üzvləri və tərəfdarları ilə birlikdə Kərbəla çölündə şəhid olub.

Kərbəla hadisələri yalnız qanlı qırğın, müharibə deyil, bütövlükdə bir hadisələr zənciri olub, İslam dininin mahiyyətinin qorunması, dinin hakimiyyətlər tərəfindən sui-istifadəsinə qarşı sivil etiraz idi. Həzrət Hüseyn (ə) əməvi xəlifəsi, hakimiyyəti atasından irs almış Yezidin beyət tələbini rədd edir. İslamda irsi sülalə hakimiyyətinin olmadığını, Peyğəmbərin xəlifəsi adına iddia edən şəxsin dinin tələblərinə riayət edən, əxlaqlı, ədalətli insan olması tələbini qoyur. İmam Hüseyn (ə) bir inqilabçı, üsyançı deyil, özünün də dəfələrlə dediyi kimi, islahatçı, insanları doğruya dəvət edən, pisliklərdən çəkindirən və nəhayət, bu yolda öz həyatını və ən yaxınlarını qurban verən bir əzabkeş idi.

Həzrət Hüseyn bir döyüşçü və ya komandir deyil, ilk növbədə İmam, İslam ümmətinin rəhbəri idi. Bütün qanlı cinayətlərin, qarşılaşdığı haqsızlıq və nifrətin müqabilində düşmənlərini əfv etməsi, mərhəmətlə yanaşması İmam Hüseynin (ə) rəhmli, mərhəmətli, həqiqi Allah aşiqi olduğunu göstərir. Məhz bu səbəbdən Kərbəla hadisələri, İmam Hüseynin fədakarlığı bir çox dünya mütəfəkkirlərinə böyük təsir göstərib, ilham qaynağı olub.

Kərbəla çölündə hökumət qoşunları İmam Hüseyn (ə) və 72 tərəfdarından ibarət qrupu mühasirəyə alır. İmam tərəfdarları 10 gün davam edən mühasirənin 3 gününü susuz qalır. Nəhayət, Məhərrəm ayının 10-da Kufə valisinin qoşunları hücum edərək İmam Hüseyni (ə) iki oğlu, qardaşı, qardaşı oğlu, bacısı oğlanları da daxil olmaqla, 72 tərəfdarı ilə birlikdə şəhid edir. Kərbəla şəhidlərinin kəsilmiş başları əsir götürülmüş ailə üzvləri ilə birlikdə Kufəyə, sonra isə şəhərləri gəzdirməklə Dəməşqə aparılır...

***

Hicri Məhərrəm ayının 10-da baş verənlər İslam tarixində dönüş nöqtəsi sayılır. Bu hadisə İslam dünyasında böyük təsir yaratdı. Səhabə və tabeindən olan çox insanlar Yezidə etiraz etdilər, hətta daha sonra xəlifə İmam Hüseynin (ə) öldürülməsi ilə bağlı fərman vermədiyini, bunu Kufə valisinin özbaşına etdiyini deyir. Ancaq etirazlar böyüyür və sonrakı il Mədinədə etirazları yatırmaq üçün əməvi xəlifəsi Yezid şəhərə ordu göndərib Mədinəni yandırır. Ancaq Kərbəla hadisəsindən sonra xilafətdə əməvi sülaləsinə etirazlar dayanmır. Bir neçə ildən sonra baş verən Muxtar Səqəfinin qiyamı zamanı Kərbəlada cinayətə əl atan xəlifə döyüşçüləri cəzalandırılır. Əməvi imperiyası isə zəifləyir.

Ancaq Peyğəmbərin (s.ə.s) sevimli nəvəsinin və ailə üzvlərinin qətlə yetirilməsi, ailəsinin əsir alınması, Dəməşqə zəncirlənib aparılması böyük bir faciəyə çevrilir. Müsəlmanlar bu hadisədən böyük üzüntü keçirərək Peyğəmbər (s.ə.s) nəvəsinə yas tuturlar. Sonradan bu mərasimlər hər il davamlı olaraq keçirilir, hər il müsəlmanlar Aşura qətliamını eyni baş vermiş qətl hadisəsi kimi qeyd edir, İmam Hüseyn və tərəfdarlarına yenicə dünyadan köçmüş insanlar kimi yas tuturlar.

Hicri 61-ci ildən sonra Məhərrəm ayı təqvimdə xüsusi yer aldı. İlk olaraq İmam Hüseyn (ə) ailəsi, daha sonra Kufə müsəlmanları Kərbəlada matəm mərasimlərini keçirməyə başladılar. Təxminən 200 il sonra Misirdə Fatimilər Aşura gününü matəm günü elan etdi. Fatimilərin dövründə Misirdə Aşura rəsmi əza və matəm günü olaraq qalırdı. İbn Kəsir yazır ki, hicrətin təxminən 400-cü ilində Bağdadda Aşura günü milli matəm günü elan olundu, xalq Hüseynin susuzluğunu nəzərə alıb küçələrdə soyuq su və şərbət qoyub susuzlara paylayırdı. İraq əhalisi də Aşura günündə Peyğəmbərin (s) vəfat etdiyi günün ildönümündə olduğu kimi əzadar idi.

Sonrakı illərdə, hətta Əməvilər dövründə sərt qadağalara baxmayaraq hər il on minlərlə insan Məhərrəm ayını matəm, hüzn mərasimi kimi qeyd edib. Hər il Məhərrəmin 10-cu günü əzadarlıq mərasimləri təşkil olunur, Kərbəla şəhidləri yad edilir. Müsəlman ölkələrində böyük bir mədəni irsə çevrilən növhə, mərsiyə yazılı ədəbiyyatı və şəbih tamaşalarının ilham qaynağı Aşura idi.

Təbii ki, bütün dini məsələlərdə olduğu kimi, Aşura hadisəsinin qeyd olunmasında da ifrata varmalar olur. Aşura hadisəsini əfsanələşdirən, onun mahiyyətini bəzən təhrif edən hekayə və əhvalatlar meydana çıxıb. Bəzi müsəlmanlar məhərrəmlik ayinlərində baş yarmaq, qan çıxarmaq kimi adətlərdən istifadə edib. Bütün bunlar fərqli yozumlara səbəb olsa da, bütövlükdə təhriflərə, qadağalara baxmayaraq Kərbəla olaylarını unutdurmaq mümkün olmayıb.

Son illərdə müsbət hadisədir ki, Aşurada İmam Hüseynə əza saxlamaqla yanaşı sosial yardımlaşma, ehtiyaclılara yardım, qan verilməsi kimi sosial aksiyalar da keçirilir.

**Bu ayda nə etmək olmaz?**

El arasında tez-tez belə bir fikirlər səslənir ki, Məhərrəm ayında elçi getmək, toy mərasimləri, içki məclisləri, bayram tədbirləri, təmtəraqlı məclislər keçirmək, həmçinin saç kəsdirmək, saç boyamaq, Aşura günündə sabundan istifadə etmək, evdə təmizlik işləri aparmaq, paltar yumaq olmaz.

Bəs nə olar, nə etmək isə haramdır? Dindarlar qeyd edir ki, İslamda Məhərrəm ayında müharibə günah sayılır. Yəni bu ayda müsəlmanların savaş etməsi, müharibələrə qoşulması, səhər və axşam namazları arasındakı vaxtda şadyanlıq etmək kimi əməllər günah sayılır. Toy və digər təmtəraqlı şadyanlıq məclisləri keçirmək xoş qarşılanmır. Saç kəsdirmək, saç boyamaq, sabundan istifadə etmək və bu cür işlərlə bağlı isə dinimizdə Məhərrəm ayı ilə bağlı belə bir məhdudiyyətlər yoxdur.

❑ **Xalidə GƏRAY**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 191 (7080) 12 sentyabr 2018

# Qurban Qurbanov, Rey və lìder problemì...




## Millətlər Liqası bizim üçün yaxşı təcrübə, daha dəqiqi, dərs ola bilər...

**“Qalib gəlmək istəyirdik. Əfsuslar ki, bunu bacarmadıq. Bir xal qazandıq. Daha doğrusu, 2 xal itirdik”. Azərbaycan milli komandasının baş məşqçisi Qurban Qurbanovun Malta ilə səfər oyunundan sonra keçirdiyi mətbuat konfransında dediyi bu fikrə yalnız bir “da” bağlayıcısı artırmaq istəyirəm. “Bunu da bacarmadıq...”**



Malta ilə oyunun asan olmayacağı məlum idi. Millətlər Liqasındakı ilk oyununda bu komanda öz meydanında Farer adalarına 1:3 məğlub olmuşdu və görünür, onların da mediası bu cür qarşılaşmalardan sonra baş məşqçini tənqid edirlər. Ola bilsin, həm oyunçulara, həm baş məşqçiyə yaxşı məvacib verirlər, o səbəbdən vergi ödəyiciləri belə məğlubiyyətdən narazılıq edirlər. Ona görə ağdamlı jurnalist dostumuzun adaşı olan Rey Farruciya 1:1-lik bərabərdən sonra Qurban Qurbanovdan fərqli əhvalda idi.

Malta Millətlər Liqasında heç bir iddiası olmayan komandadır, amma onlar da futbol oynayırlar və sifətlərini qorumağa çalışdılar. Azərbaycanla qarşılaşmada onları motivasiya edən başqa səbəblər də vardı. Bu komanda vaxtilə bizə 5:0 qalib də gəlib axı...İndi Azərbaycana uduzmaq yəqin arlarına gəldi və nə olursa-olsun bərabərlik hesabını qorumağa çalışdılar. Azərbaycan millisi isə bu cırtdan dövlətin komandasına qalib gəlmək iddiasında idi və bunu(da) bacara bilmədi.

Malta Avropada orta səviyyədən də aşağı futbol komandasıdır, bunu gizlətmirlər də. Komandanın baş məşqçisi deyir ki, cəmi iki ildir beynəlxalq arenada top oynayan Kosovo bu qrupda onlarla bir sırada olmamalıdır. Çünki güclüdür. Azərbaycanı isə demir...

***

Həm baş məşqçinin, həm komanda üzvlərinin qələbəyə köklənməsi əlbəttə ki, yaxşıdır. Amma təəssüf ki, bu qələbə istəyini oyunda tam görə bilmədik. “Bir çox futbolçunun durumundan narahat idim. Gözlədiyim kimi, performanslarından aşağı çıxış etdilər. İşlərimiz çoxdur. Hansısa çatışmazlıqları aradan qaldırmağı öz üzərimə götürərəm. İradlarınızı mənə bildirə bilərsiniz”. Qurban qardaşımıza nə iradımız ola bilər? Kosovo ilə oyundan dərhal sonra komanda ilə bağlı bəzi fikirlərimi yazmışdım və təəssüf ki, ikinci oyundan sonra da bu fikrimdə qalmalı oldum. Sitat belə idi: **“Qurban Qurbanovu qınamalı deyil. Adam məşqçi kimi bacardığını edir. Biz baş məşqçidən möcüzə gözləyə bilmərik. Nədirsə budur... Siz baş məşqçiyə ”material" verin, sonra möcüzə istəyin". İndi baş məşqçi də həmin “material”dan danışır, amma “iradınızı mənə bildirin” deyir. Qurban Qurbanova yaraşan da budur...**

***

Malta ilə oyunda bəzi dəyişikliklər uğurlu idi, xüsusən ötən oyunda yaxşı mənada fərqlənən Rauf və Təmkinin start heyətdə yer alması. Təmkin baxımlı və vacib qol vurdu. Ümumiyyətlə, bizim milli komandaya kənardan oyunçu dəvət etməyimiz uğur gətirmir. Əvvəla, elə güclü futbolçumuz yoxdur, amma sağ olsunlar, özlərini Azərbaycana bağlı hesab edənlər gəlib millidə oynayırlar. Zəhmətlərini yerə vurmayaq, amma məncə, milli komanda üçün elə ölkənin içindən seçim etmək lazımdır. Çempionatımızın səviyyəsi, klublarımızın gücü bəlli, bunu daha bəhanə etməyin yeri yoxdur. Başqa planda da əsas komandanın problemləri var, amma ən əsası...millidə hücumçu yoxdur! Bunu Kosovo ilə oyundan sonra da xüsusi qeyd etmişdim. Sitatı yada salmağa məcburam: **“Azərbaycan futbolu ciddi hücumçu böhranı keçirir. Klublarda əcnəbilər bu ayıbı bir az örtürlər, amma milliyə gəldikdə bu, çox qabarıq görünür. Hətta ayıb kimi...”**

Mahir Mədətovun çalışqanlığı var, amma qol vurmur. Hücumçu kimi başı aldatma hərəkətlərinə qarışır və qol vəziyyətləri yaratmır. Biz köhnə futbol məktəbinə baxmışıq deyə, hücumçuya baxışımız fərqlidir, ola bilsin ki, indi baş məşqçilər bu mövqedə oynayanların üzərində başqa oyun sxemi qurur. Amma dəyişməyən odur ki, hücumçu qol vurmadısa, komandanın işi çətindir. Yeri gəldi deyirəm, Ronaldonu heç vaxt çalışqan hücumçu hesab etməmişəm, gizlənib qol vurmağı yaxşı bacarır. İndi onun ağrısını “Yuventus”da çəkir, hələ də İtaliya çempionatında qol vura bilməyib. Çünki İtaliyada hücumçu işləməlidir, tər tökməlidir. 7 nömrə olmaq üçün 7\24 canına əziyyət verməlisən.



Bizim Azərbaycan millisində indi ən “gözəgirən” problem hücumçu olmamasıdır. Hücum futbolu oynamaq istəyirik, alınmır da demək olmaz, amma hücumçunun yeri ayrıdır. Meydanda bir lider problemi də var. Lider o demək deyil ki, avtoritet olasan. Lider-oyunçu elə özü avtoritetdir, tamaşaçının kumiridir. Bu komandada güvənilәsi xeyli oyunçu var, illərini milliyə veriblər. Amma həmin statusda ola bilmirlər. Məsələn, yenə fikrimin aydın olması üçün hazırda heç də bizdən yaxşı vəziyyətdə olmayan İtaliya milisindən nümunə kimi Kellinini göstərərdim. Elə Ronaldo da Portuqaliya millisində eyni statusdadır. Nə isə...



***

Millətlər Liqasında qalan oyunlarımızı fikirləşmək lazımdır. Məncə, biz o vaxt uğurlu startdan danışa bilərdik ki, iki turdan sonra minimum 4 xalımız olardı. Qalan 4 oyun haqda Qurban Qurbanov optimist danışıb. Deyib ki, Kosovonun xal itkisinə ümid edib qalan oyunlarda qələbə qazanmaq olar. Məncə, cəmi üç aya yekunlaşacaq Millətlər Liqası bizim üçün yaxşı təcrübə, daha dəqiqi, dərs ola bilər. Qurban qardaşımız tənqidləri üzərinə götürməklə deyil, millinin gələcəyi haqda bütün futbol rəhbərliyi düşünməlidir, hər dəstəyi verməlidir. Çünki qarşıda Avropa çempionatının seçmə mərhələsi var. Ümid edək ki, komandamız o vaxtadək daha yaxşı formaya düşəcək. Hiss olunur ki, heyətlə bağlı bir araşdırma gedir və inanaq ki, baş məşqçi optimal heyəti formalaşdıra biləcək. Hələ hər şey qarşıdadır...



❑ **Nazìm SABÌROĞLU,**
**“Yenì Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 191 (7080) 12 sentyabr 2018



## Əgər uşaq ağlayırsa...

Avstraliyada valideynlərin ağlayan uşaqlarına necə münasibət göstərməsi ilə bağlı bir araşdırma hazırlanıb. Alimlər valideynlərə tövsiyə edib ki, uşaqlar ağlamağa başlayandan bir müddət sonra onları sakitləşdirmək üçün hərəkətə keçsinlər. 7 aydan 6 yaşa qədər olan 326 uşaq üzərində aparılan araşdırmanın nəticələrinə görə, ata-analar ağlayan uşaqlarını nə qədər gec susdursalar, bir o qədər uğurlu nəticə əldə edirlər. Bunun adına "nəzarətli ağlama" deyilir. Belə ki, valideynlər uşaq ağlayandan sonra gözləmə müddətini hər dəfə artırır və onların öz-özünə sakitləşmə vərdişi qazanırlar. Araşdırmanın rəhbəri Anna Price deyib: "Ata-analar uşaq ağlamağa başlayandan sonra bir gecə 2 dəqiqə, növbəti gecə 5 dəqiqə müdaxilə etmədən gözləməyi öyrənsinlər. Bu, uşağa ziyan deyil. Amma valideynlər uşaq ağlayan kimi onun qapısını bağlayıb, onunla maraqlanmırmış kimi etməsin. Hərdən otaqlarına gedib, nə etdiyi ilə maraqlansın. Bu halda uşaq da, ana da sağlam bir gecə keçirəcək".

## Pilot selfi çəkir, sərnişinlər narazılıq edir



Braziliyalı pilot Daniel Centeno digər məsləkdaşları kimi işinə görə dünyanın dörd bir tərəfini təyyarə ilə qət edir. Açdığı İnstaqram hesabında 63 min təqibçisi olan Daneil Centeno bu hesabından getdiyi yerlərin şəkillərini paylaşmağı da yaddan çıxarmır. Amma Daniel Centenonun bəzi şəkilləri təqibçilərinin etirazına səbəb olub. Uçuşa aid paylaşdığı şəkillərdəki hərəkətləri xüsusən də tez-tez uçuş edən sərnişinlərin etirazını doğurub. Belə ki, həmin fotolarda pilot şelfi çubuğunu kabinədən çıxarır, ya da pəncərəni açıb, başını bayıra çıxararaq poza verir. Bu isə onun uçuşlarda təhlükəsizlik qaydalarını tamamilə pozduğunun göstəricisidir. Halbuki işin gerçəyi tamamən fərqlidir. Belə ki, təqibçilərndən aldığı etiraz dolu məktublardan sonra Centeno bildirib ki, sözügedən şəkillər fotoşop məhsuludur və uçuş zamanı belə şəkillər çəkmək, ümumiyyətlə, praktiki baxımdan mümkün deyil.

## Maşın parkinqda itibsə... gec tapılır

Polis 6 ay əvvəl parkinqdə maşınını itirən şotlandı sevindirib. Lenta.ru saytı xəbər verir ki, 2016-cı ilin iyununda şotland öz dostundan BMW maşınını istəyib. O, bu maşınla Mançesterdə keçirilən "The Stone Roses" qrupunun konsertinə qatılmaq istəyib. Amma tədbirdən sonra kişi maşınını tapa bilməyib. Çünki o, maşınını park etdiyi yeri unudub. Beş gün boyunca çoxmərtəbli dayanacaqda maşınını tapmağa çalışıb, amma buna nail olmayıb. Maşin sahibi daha sonra problemin həlli üçün müxtəlif kampaniyalara və şəhər bələdiyyəsinə müraciət edib. Nəticədə 2 ay sonra maşınla bağlı axtarış elan edilib. Yeni il ərəfəsində isə polis əməkdaşları maşını aşkar ediblər. Məlum olub ki, keçən 6 ay müddətində maşın elə dayanacaqda olub. Amma sahibi üçün maşının tapılması da dərd olub. Çünki o, parkinq xidməti üçün 6 aylıq müddətin pulunu ödəməlidir. Bu isə yetərincə böyük məbləğ sayılır.





## 23 il əvvəl ölən oğlunun ürəyini daşıyan adamı gördü və...

Bir ananın bəlkə də ən çətin anlarından biridir bu. Margaret Valsechin oğlu 23 il əvvəl dünyasını dəyişib. Bu zaman oğlunun ürəyi ürək xəstəsi olan Bobby Dohertiyə köçürülüb. Ana 26 yaşındakı oğlu Stephenin ürəyi ilə həyata qayıdan Bobby Doherti ilə bir araya gəlib. Oğlunun ürəyini daşıyan Dohertini qucaqlayan ana mətbuata deyib ki, bu, inanılmaz bir an idi. 26 yaşındaki Bobby Doherty dünyaya qüsurlu ürəklə gəlib. 5 ay boyunca ürək köçürməsi üçün növbədə gözləyib. Ana Margaretin cəsur qərarı sayəsində isə axtardığı ürəyi tapıb. Doherti isə deyib ki, ana Margeretlə görüşmədən əvvəl ürək transplantasiyası gözləyirmiş kimi gərgin olub: "Özümü günahkar hiss etmişdim. Çünki ölən oğlunun ürəyini götürmüşdüm".




**QOÇ** - İmkan daxilində bütün riskli və səfərlə bağlı işləri təxirə salın. Əsas vaxtınızı istirahətə həsr etməklə növbəti günlərin planlarını qurun. Aldığınız təklifləri beyin süzgəcindən keçirin.

**BUĞA** - İlk növbədə yoluxucu xəstəliklərdən qorunun. Çünki ulduzlar axşam saatlarında orqanizminizin buna həssas olacağını bildirir. Nahar ərəfəsində sevindirici xəbər eşidəcəksiniz.

**ƏKİZLƏR** - Bütün danışıq və sövdələşmələri təxirə salıb oturaq işlərlə məşğul olun. Əks təqdirdə, təxribat və ya böhtanla üzləşəcəksiniz. Yaxşısı budur, enerjinizi ailə və sevgiyə yönəldəsiniz.

**XƏRÇƏNG** - Bu təqvimdə ulduzlar daha çox sizin bürcə pul vəd edir. Bu səbəbdən də boş durmağınıza lüzum yoxdur. Büdcənizi artırmaq üçün ağlınıza gələn bütün ünvanlara və adamlara baş çəkin.

**ŞİR** - Təxminən saat 12-yə qədər bürcünüz üçün bəzi xoşagəlməzliklər mümkündür. Özünüzü gərgin və anlaşılmaz situasiyalara cəlb etməyin. Nahardan sonrasa maraqlı görüş və pul gözlənilir.

**QIZ** - Astroloji göstəricilər yalnız səfərə çıxmaqla yüksək əhval-ruhiyyəyə yiyələnəcəyinizi proqnozlaşdırır. Bu fürsəti fövtə verməyin. Ulduzlar varlanacağınızdan da xəbər verir.

**TƏRƏZİ** - Qonaqlıq üçün ideal gündür. Ya hansısa ünvana getməli, ya da ürəyinizə yaxın adamları qonaq çağırmalısınız. Bugünkü söhbətlərin gələcəyiniz üçün əhəmiyyəti böyük olacaq.

**ƏQRƏB** - Çağırılmamış ünvanlara qonaq getməyin. Əks təqdirdə, məyusluqla qarşılaşacaqsınız. Bu gün təxribata cəlb olunmağınız üçün bir çoxları canfəşanlıq edəcəklər. Təmkinli olun.

**OXATAN** - Səhhətinizlə bağlı diqqətli olmağınız vacibdir. İqlimin dəyişkənliyi və ətrafınızda olan insanları qəbul etməməyiniz sinir sisteminizdə mənfi fəsadlar yarada bilər. İstirahətə fikir verin.

**OĞLAQ** - Ulduzlar nahara qədər istirahət etməyinizi məsləhət görür. Əgər ciddi işlərə girişsəniz, uğurlu nəticə hasil olmayacaq. Günün ikinci yarısında isə sürpriz gözlənilir. Uzaq yola çıxmayın.

**SUTÖKƏN** - İndiki məqamda xilas yolunuz yalnız dost və müttəfiqlərdən asılıdır. Çünki əsaslı dönüş etmək üçün fiziki və psixoloji cəhətdən o qədər də hazır deyilsiniz. Sağlamlığınıza fikir verin.

**BALIQLAR** - Qərarlarınızda qəti olsanız, heç bir narahatçılıqla üzləşməyəcəksiniz. Bu gün darıxdığınız adamların bir çoxu ilə görüşəcəksiniz. Axşamsa sevindirici hadisələrin şahidi olacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən ağır donuzu

Çinin Xenan əyalətində çəkisi 750 kilo olan donuz aşkarlanıb. Ona "ölkənin ən iri canlısı" titulu verilib. Bu barədə "People's Daily Online" yazıb. Heyvanın uzunluğu 2,1 metr, hündürlüyü isə 1.5 metrdir. "Daily Mail"in yazdığına görə, ən böyük heyvan müsabiqəsini yerli fermer assosiasiyası təşkil edib. Donuzun Çjan adlı sahibi isə 3 ildir ki, onun qayğısına qalır. Sahibinin dediyinə görə, donuz çox yeyir və buna görə də ölçüləri inəyin ölçülərinə yaxınlaşıb. Xəbərdə qeyd olunur ki, ölkənin tarixindəki ən böyük donuz Ton Piq ləqəbli heyvan olub. Onun çəkisi 900 kilo olub. 4 yaşlı heyvan 2004-cü ildə ölüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.